www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 avqust 2014-cü il Cümə № 198 (5907) Qiymәti 40 qәpik

**Xəbər**

## Qobustanda məhbuslar aclıq aksiyası keçirirlər

yazısı səh.3-də

**Gündəm**

### Soçi müəmması



Sərkisyanın Rusiyaya getməyəcəyi xəbəri yayıldı və təkzib edildi; həmsədrlərin isə danışıqlara qatılmayacağı açıqlandı

yazısı səh.4-də

### İsa Qəmbər MSDM-in sədri seçildi
yazısı səh.2-də

### Düşmənin istənilən obyektini məhv edəcək silahımız hansıdır?
yazısı səh.6-da

### Mikayıl Cabbarov Misir Mərdanov dövrünü ifşa etdi
yazısı səh.13-də

### Cəbhədəki son döyüşlərdə 47 erməni hərbçisi öldürülüb
yazısı səh.11-də

### Dini Komitə sədrinin Sumqayıta getməsinin sirri...
yazısı səh.4-də

### Bir gündə iki erməninin ələ keçdiyi xəbəri yayıldı
yazısı səh.3-də

### Azərbaycan-İran münasibətlərində "buzlar əriyir"
yazısı səh.9-da

### Hesablarına həbs qoyulan QHT-lər çətin durumda
yazısı səh.5-də

### Deputatlar ön cəbhəyə niyə getmədiklərinin səbəbini açıqladılar
yazısı səh.15-də

### Həmkarlarından İlqar Mikayıloğluna "güllə" kimi cavablar...
yazısı səh.15-də

### Jurnalist övladları qəbul imtahanından üzüağ çıxdılar
yazısı səh.13-də

### Ərdoğan, yoxsa İhsanoğlu?
yazısı səh.9-da

## Moskva-Vaşinqton qarşıdurmasında cəbhə xətti dəyişir

# QARABAĞDAKI SON HADİSƏLƏRDƏ "AMERİKA İZİ"

Bəzi analitiklərə görə, postsovet məkanında rəngli inqilablar ssenarisi izləyən ABŞ da lokal müharibədə maraqlı ola bilər; fərqli qənaətlər də mövcuddur; Putinə yaxın şəxs: "Amerika və Rusiya bu dəqiqə Ermənistan hayında deyil..."

yazısı səh.11-də




# 5 uşaq dənizdə batdı: 3-ü bir ailənin üzvüdür!

**Qafil Məmmədov:** "Həmişə uşaqları dənizə özüm gətirirdim, amma həmin gün..."

yazısı səh.10-da



### Əli Həsənov AI rəsmilərinin bəyanatına cavab verdi
yazısı səh.8-də



*Mehman Əliyev:*

### "Sabah Ziya Məmmədova desələr ki, biznesini təhvil ver, verəcək"
yazısı səh.10-da



İlham Əliyev

### Siyasilər prezidentin cəbhədə verdiyi bəyanatları şərh etdilər
yazısı səh.7-də

# Prezident Ağdama iki milyon manat ayırdı




**Prezident İlham Əliyev Ağdam rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Lent.az-ın «AzərTAc»a istinadən verdiyi xəbərə görə, Quzanlı qəsəbəsində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üzrə müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə Ağdam Rayon İcra Hakimiyyətinə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2 milyon manat ayrılıb.**

Maliyyə Nazirliyinə bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

# Azərbaycan səfirliyinin birinci katibinin qayınanası qəzada ölüb

**Avqustun 6-da Tiflis Şəhər Məhkəməsinin foyesində insident baş verib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu il iyunun 9-da Tiflisdə baş vermiş ağır yol-nəqliyyat hadisəsi ilə bağlı keçirilən məhkəmə prosesində iştirak edən Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi Pərviz Ənvərli və digər şəxslər məhkəmənin mühafizə xidməti tərəfindən hədələnərək zorla məhkəmə binasından çıxarılıb.**

P. Ənvərli APA-nın Gürcüstan bürosuna açıqlamasında bu il iyunun 9-da Tiflisdə baş vermiş ağır yol qəzası barədə məlumat verib: "Tiflis şəhərindəki yaşayış binasının qarşısındakı 4 zolaqlı yolu keçən qayınanam, 53 yaşlı Azərbaycan vətəndaşı Zeynəb Məmmədova və onun yanında olan iki azyaşlı uşaq səkiyə çatarkən Tiflis sakini David Malazoniyanın idarə etdiyi "Mercedes ML" markalı nəqliyyat vasitəsi tərəfindən vurulub. 1961-ci il təvəllüdlü Z. Məmmədova ağır xəsarət alıb və Mərkəzi Universitet Klinikasının təcili yardım məntəqəsinə aparılıb. İstintaq materiallarına əsasən Z. Məmmədova həmin gün əməliyyata qəbul edilib və bir saat sonra aldığı xəsarətlər səbəbindən daxili qanaxma nəticəsində ölüm faktı qeydə alınıb. Hadisə yerinə gələn təcili yardım maşını qızım Zəhra Ənvərlini Mərkəzi Uşaq Xəstəxanasının reanimasiya şöbəsinə aparıb. Qayınanam Zeynəb Məmmədovanın çantasında mobil telefon olmasına baxmayaraq, yol-patrul polisi bizə hadisə barədə məlumat verməyib və naməlum meyitin identifikasiyası üçün heç bir addım atılmayıb, fakt isə naməlum səbəbdən bir neçə saat gizlədilib. 6 yaşlı qızım Zəhra Ənvərli özünün dediyinə görə, valideynləri haqqında, onların əlaqə telefonu və iş yeri barədə rəsmi şəxslərə lazımi məlumatları çatdırmasına baxmayaraq, nədənsə mənə və həyat yoldaşıma 7 saat məlumat verilməyib".

**P. Ənvərli bildirib ki, həmin gün saat 18.00-da 112 xilasetmə xidmətinə rəsmi axtarış verdikdən sonra mobil telefonun anten-müəyyənləşdirilməsi (geolokasiya) tələbi nəticəsində 18.30 radələrində xəstəxananın reanimasiya şöbəsində uşaqlarını tapa bilib:** "Artıq iki aya yaxındır ki, döymədiyimiz qapı qalmayıb. Gürcüstanın baş naziri, daxili işlər naziri, Xarici İşlər Nazirliyi, baş prokuror və digər qurumlar cinayət işi ilə bağlı səfirlik tərəfindən, həm də mənim tərəfimdən rəsmi məlumatlandırılıb. Təəssüf ki, hələ indiyədək cinayətkar azad və asudə gəzir".

P. Ənvərli sürücü David Malazoniya haqqında həbs-qətimkan tədbiri seçilməməsini ədalətsizlik adlandırıb.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Müsavat rəhbərliyi şəhidlərin yas mərasimində iştirak edib

**Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı və partiya başqanının müavini Gülağa Aslanlı başda olmaqla, bir qrup partiya yetkilisi son günlər cəbhədə şəhid olan hərbçilərimizdən bir neçəsinin yas mərasimində iştirak edib.**




Musavat.com-un Gülağa Aslanlıya istinadən verdiyi xəbərə görə, müsavatçılar Salyan və Biləsuvar rayonlarında olublar. Salyanın Sadıxlı kəndində şəhid Səftər Məmmədovun (sıravi), Biləsuvarda Anar Qafarzadənin (sıravi), gizirlər Rahil Hüseynov və Pərvin Əliyevin (son iki şəhid Nərimankənddəndir) ailə üzvləri və yaxınları ilə görüşərək onlara başsağlığı verib, şəhidlərin məzarlarını ziyarət ediblər.

Müsavat yetkililərini səfər zamanı Müsavat Məclisinin üzvü Valeh Hümmətoğlu, Rövşən Dəmirli, Namiq Məmmədli və partiyanın Biləsuvar rayon təşkilatının sədri Yusif Mehdiyev başda olmaqla, 10-yaxın Biləsuvar müsavatçısı müşayiət edib.

❑ **Musavat.com**



# Fransa polisi 2,7 milyon dollarlıq kokain oğurlayıb

## Parisdəki qarajdan 200 kq kokain tapılıb

**"FRANCE 24"ün yaydığı xəbərdə Fransa Daxili İşlər Nazirliyində baş vermiş cinayətlərdən bəhs edilir. Media orqanı bildirir ki, polis zabitinin 52 kq kokain oğurladığı ehtimal olunur. Oğurluq hadisəsinin polisin Parisdəki mərkəzi ofisində baş verdiyi bildirilir. Bu oğurluqda şübhəli bilinən şəxs çərşənbə günündən nəzarət altına alınıb və istintaq hərəkətlərinə start verilib. Bu barədə ədliyyə orqanlarındakı mənbələrdən xəbər əldə edilib.**

Fransanın daxili işlər naziri Bernard Kaçenoyve (Bernard Cazeneuve) hadisənin dərindən araşdırılmasına göstəriş verib. Xəbərdə deyilir ki, polisin Parisdəki Sena çayının sahilində yerləşən ofisində artıq ikinci dəfədir ki, belə ağır cinayət hadisəsi qeydə alınır.

34 yaşlı polis zabitinin narkomaniyaya qarşı mübarizə birliyinin üzvü olduğu vurğulanır. Oğurlanan kokainin dəyəri isə 2,7 milyon dollar civarındadır. Bu qədər iri kokain polis reydi zamanı müsadirə olunubmuş.

Hələ ki polis zabiti kokain oğurluğu ittihamını qəti şəkildə rədd edir. Ancaq o, əlində iki çamadanla gedərkən video-qeydə alınıb.

Polis zabitinin evindən 25 min avro tapılıb. Ancaq o bildirib ki, bu məbləği online qumar oyununda udub və uduşun mənbəyini də göstərib.

Polislə bağlı daha bir məqam ortaya çıxıb. Belə ki, polisin arendaya götürdüyü qarajın yanındakı qarajdan 200 kq kokain tapılıb.

❑ **Elbəyi HƏSƏNLİ (Sürix)**

# Ohanyan Mingəçeviri vurmaqla hədələdi



**Azərbaycan ermənilərin Mingəçevir Su Elektrik Stansiyasına hücumundan qorxur. Axar.az xəbər verir ki, bu barədə Ermənistanın müdafiə naziri Seyran Ohanyan Ermənistan hökumətinin iclası zamanı bildirib.**

İclas zamanı Ermənistanın fövqəladə hallar naziri Armen Ariçyan da çıxışında bildirib ki, Azərbaycan FHN qüvvələrini sərhədyanı zonalara hərbi xidmətə çağırmaq istəyir.

Ariçyan qeyd edib ki, Müdafiə Nazirliyi onlara təlim üçün ərazi versə, Ermənistan FHN-in 4 min nəfərlik mülki müdafiəsi silahsız da xidmət edə bilər.

Ermənistanın baş naziri Ovik Abramyan isə bildirib ki, bu məsələ müzakirə olunmalıdır.

# Günəşdən təhlükə gözlənilir

**Hazırda Günəş aktivliyinin 11 illik dövrünün pik nöqtəsində olmasa da, təhlükə tam aradan qalxmayıb. Çünki Günəş fəallığı pik həddinə 3-4 ildə çatdığı halda aktivliyin azalması daha uzun müddət, yəni 7 ilə qədər davam edir. Buna görə də 2014-cü və hətta 2015-ci ildə də Günəşdən təhlükələr gözləniləndir".**

Bunu interpress.az-a N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının Günəş və Günəş-Yer şöbəsinin müdiri Namiq Cəlilov deyib.

Şöbə müdirinin sözlərinə görə, son bir həftə ərzində aparılan müşahidələr Günəşdə fəallığın olmadığını göstərir: "Ancaq bu o demək deyil ki, fəallıq bundan sonra da hiss edilməyəcək. 2014-cü ildə də Günəşdən təhlükə gözlənilir. Partlayışların baş verəcəyi təqdirdə bunun Yerə necə təsir edəcəyi barədə əvvəlcədən NASA mütəxəssisləri tərəfindən xəbərdarlıq olunacaq".

# Rusiya Avropa Birliyi və ABŞ məhsullarına qadağa qoydu

**Rusiya baş naziri Dmitri Medvedyev Avropa Birliyindən, ABŞ-dan, Avstraliyadan və Kanadadan idxal edilən bir çox məhsulun Rusiyaya gətirilməyəcəyini elan edib. Modern.az rus mətbuatına istinadən xəbər verir ki, idxalı qadağan edilən məhsullar arasında mal əti, donuz əti, quş əti, meyvə-tərəvəz, süd və ağartı məhsulları var. Avqustun 7-si gecə saatlarından qüvvəyə minəcək qanun 1 il müddətində fəaliyyət göstərəcək. Hökumətin iclası zamanı çıxış edən Medvedyevin sözlərinə görə, qadağalar uşaq qidalarına şamil edilməyəcək.**

Xatırladaq ki, bundan öncə Qərb ölkələrinin Rusiyaya qarşı sanksiyalarına cavab olaraq Vladimir Putin "Rusiya bazarının qorunması üçün xüsusi tədbirlər barədə" fərman vermişdi.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**



# İsa Qəmbər MSDM-in sədri seçildi

## Milli Strateji Düşüncə Mərkəzinin məlumatı

**Avqustun 7-də Müsavat Partiyasının qərargahında MSDM-in Məşvərət Heyətinin toplantısı keçirilib. Toplantıda İsa Qəmbər MSDM-in sədri seçilib. Bu barədə musavat.com MSDM -in yaydığı məlumat bülletenindən xəbər tutub.**

Bülletendə yazılır ki, toplantıda son günlər cəbhədə baş verən hadisələr kontekstində Qarabağ məsələsi müzakirə edilib. Çıxışlarda belə bir rəy ifadə olunub ki, Soçi görüşlərinin status-kvonun saxlanmasına xidmət etməsinə yol verilməməlidir.

Toplantıda habelə son həbslər, vətəndaş cəmiyyətinə, bütövlükdə demokratik qüvvələrə qarşı repressiyalar müzakirəyə çıxarılıb. Ekspertlər diqqəti bu prosesin Azərbaycanın təhlükəsizlik maraqlarına ciddi təhdidə çevrilməsinə cəlb ediblər, bir sıra təklif və tövsiyələr irəli sürüblər. Bu mövzuda müvafiq sənədlərin hazırlanması, növbəti toplantılarda müzakirə edildikdən sonra ictimaiyyətə təqdim edilməsi məqsədəuyğun sayılıb.

❑ **Musavat. com**

# Azərbaycanlı Rusiyada «zamministr» oldu

**Rəşid İsmayılov Rusiya Federasiyası rabitə və kütləvi kommunikasiyalar nazirinin müavini təyin olunub. "APA-Economics"in məlumatına görə, bu barədə nazirliyin yaydığı press-relizdə qeyd olunub.**

Yeni vəzifədə R.İsmayılov informasiya texnologiyaları sahəsinin inkişafı və nazirliyin beynəlxalq əlaqələr istiqamətinə rəhbərlik edəcək. Qeyd edək ki, R.İsmayılovdan öncə bu vəzifəni Mark Şmuleviç tutub.

Ötən ilin yanvar ayından etibarən R.İsmayılov nazirliyin beynəlxalq əməkdaşlıq departamentinə rəhbərlik edib.

"Nazirliyin beynəlxalq əməkdaşlıq departamentinə rəhbərlik etdiyi dövrdə Rəşid İsmayılov özünün məsuliyyətli rəhbər olması və vaxtında düzgün qərar qəbul etmək bacarığı ilə seçilib. Bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıqdan əldə olunan təcrübə ona informasiya texnologiyaları sahəsinin inkişafı ilə bağlı qarşıda duran vəzifələri yerinə yetirmək üçün çox kömək edəcək", - deyə rabitə və kütləvi kommunikasiyalar naziri Nikolay Nikiforov qeyd edib.

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Qobustanda məhbuslar aclıq aksiyası keçirirlər

### Məhbusların valideynləri həbsxanada verilən dəhşətli işgəncələr barədə Penitensiar Xidmətin rəisi, general Mədət Quliyevə də danışıblar

**Qobustan həbsxanasındakı məhbuslar avqustun 4-dən etibarən aclıq aksiyası keçirirlər. Bu barədə mətbuata məhbusların yaxınları məlumat veriblər. Aksiyanın keçirilməsinə səbəb kimi, məhbusların saxlanma şəraitindən və verilən qidanın keyfiyyətsiz olmasından narazılıqları, eləcə də vaxtaşırı işgəncəyə məruz qalmaları göstərilir. Məhbusların yaxınlarının verdiyi məlumata görə, 1500-ə yaxın məhbus aclıq edir.**

Qobustan həbsxanasında cəza çəkən Fərid Əbdülhadinin anası Aidə Şahverdiyeva aclıq aksiyasının keçirildiyini təsdiqləyib: "Bu gün (dünən-red) aclıq aksiyasının keçirilməsi ilə bağlı Penitensiar Xidmətin rəisi, general Mədət Quliyevin qəbulunda olduq. O, bizə söz verdi ki, aclıq aksiyasının dayandırılması üçün işlər görəcək. Bizdən də xahiş etdi ki, övladlarımız aksiyanı dayandırsınlar. Valideynlərin imzalarla müraciəti oldu. Həbsxana daxilində olan qanunsuzluq, problemlər barədə ona ətraflı məlumat verdik. O bildirdi ki, sovet dövründən qalan həbsxana olduğuna görə vəziyyət belədir. General tezliklə yeni həbsxana tikiləcəyini və məhbusların ora köçürüləcəyini söylədi. Hazırda 6 nəfərlik yerdə 12 məhbus saxlanılır. İşgəncələrə məruz qalan məhbuslar barədə də ona məlumat verdik. O, tezliklə bu məsələni araşdıracağını dedi. Şikayətlərimizə baxılmasa, prezidentə qədər bütün orqanlara müraciət edəcəyik".

**Görüşdə iştirak edən Cəlil adlı məhbusun atası Əşrəf Hacıağayev də dedi ki, Mədət Quliyev onlara vəziyyətin araşdırılacağına söz verib.** "Aksiyanın başlamasına səbəb Qafarov soyadlı rəhbərliyin onlara verdiyi işgəncədir. Bundan əlavə, qida məhsullarının keyfiyyəti aşağıdır. Həbsxanada olsa da, məhbus da insandır. Sabah azadlığa çıxanda yenə əvvəlki vətəndaş olacaq. Onların azadlığı əllərindən alınıb, yaşamaq hüquqları yox. Həbsxanada xüsusi idmançılar vasitəsilə məhbuslara dəhşətli işgəncələr verilir. Oğlumun başı 12 yerdən yaralanmışdı. Axı o da insandır. Bu qədər qaniçən olmaq nəyə yaraşır? Həbsxana daxilinə nəzarətçilər telefon keçirərək, 20-yə yaxın məhbusa bir telefon satırlar. Bunlara kim cavab verəcək? Kontur qurtaran zaman dövlətimizin nişanını daşıyan mayor konturu 5 qat bahasına satır. Belə olduqda məhbuslar da valideynlərindən pul istəyirlər".

❑ **Cavanşir ABBASLI**

# Bir gündə iki erməninin ələ keçdiyi xəbəri yayıldı

### Müdafiə Nazirliyi onların diversant, erməni tərəfi isə mülki şəxs olduğunu deyir...




**Dünən Azərbaycanın Ermənistanla sərhədində növbəti insident yaşanıb. Müdafiə Nazirliyinin məlumatına görə, saat təxminən 13.30 radələrində Tovuz rayonunun ərazisində ermənilərin kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərib.**

Nazirliyin rəsmi saytında gedən xəbərdə deyilir ki, müdafiənin ön xəttində yerləşən bölmələrimizin sayıqlığı nəticəsində düşmənin bu cəhdinin qarşısı alınıb. Aşkar olunan qrup yaxın məsafəyə buraxıldıqdan sonra dəstənin zərərsizləşdirilməsi istiqamətində tədbirlərə başlanıb. İtkilər verərək geri çəkilən təxribat-diversiya qrupunun 4 üzvü məhv edilib, bir üzvü Berd rayonunun Çinari kənd sakini 1989-cu il təvəllüdlü Karen Artişeviç Petrosyan isə əsgərlərimiz tərəfindən tutulub. Hazırda dəstənin planı və fəaliyyətinin araşdırılması ilə əlaqədar iş aparılır.

Erməni tərəfi isə tutulan Karen Petrosyanın 32 yaşında mülki şəxs olduğunu iddia edib. Kənd icmasının rəhbəri Samvel Sadoyan armenpress-ə bildirib ki, Karen Petrosyan guya içki həvəskarı olub. **"Hələlik biz bilmirik ki, o, hansı şəraitdə sərhədi keçib. Ancaq ehtimal var ki, sərxoş vəziyyətdə olub"**, - deyə icma başçısı bildirib.

O da maraqlıdır ki, eyni gündə Tovuz rayonunda Ermənistan vətəndaşı, 1965-ci il təvəllüdlü Petrosyan Arduş Dalenoviçin tutularaq yerli hüquq-mühafizə orqanlarına təhvil verilməsi xəbəri də yayılıb. Bu barədə azzision.az-a rayonun Ağbulaq kəndinin icra nümayəndəsi Tofiq Hüseynov məlumat verib. **İcra nümayəndəsinin sözlərinə görə, saxlanılan erməni mülki vətəndaş olub.** "Kənd sakinləri mənə bildirdilər ki, həmin şəxs hərbçi yox, mülki vətəndaş olub. Tutulan erməni kənd sakinlərinə deyib ki, sərhədi keçən zaman 3 nəfər olublar. Sərhəddə mina partlayışı olub və digər iki nəfər ölüb. Yalnız bu sağ qala bilib. Bizim kəndə çatan vaxt isə kənd sakinləri bunu görüb və saxlayıblar", - deyə T.Hüseynov əlavə edib.

**Ağbulaq kənd sakini Quliyev Röyal İsmixan oğlunun bildirdiyinə görə, sərhədi keçən ermənini məhz o tutub:** "Evdə yatırdım. Eşitdim ki, həyətdə kimsə anamdan çay istəyir. Çıxdım həyətə. Məni görən kimi erməni işarə ilə məndən siqaret istədi. Dedim ki, səndə siqaret yoxdurmu məndən istəyirsən. Cibindən boş qutunu çıxarıb göstərdi. Gördüm ki, siqaret qutusu bizim ölkədə satılan siqaretə oxşamır. Şübhələndim. Tez maşının təkər açarını götürdüm, onu qorxudub yerə yıxdım. Hardan gəldiyini soruşdum. Elə bil Azərbaycan dilini başa düşürdü. Cavab verdi ki, Çinarlıdan gəlib. Onu tutub kəndin mərkəzinə apardım və hərbçilərə təhvil verdim". **R.Quliyev erməninin səliqə ilə geyindiyini, mobil telefonunda silah fotolarının olduğunu da qeyd edib:** "Soruşduqda dedi ki, qardaşı hərbçidir, telefondakı fotolar da onun silahının fotolarıdır".

❑ **NURLAN**




# İlham Əliyev tvitterdə könüllü cəbhəyə getmək istəyənlər barədə yazdı

**Prezident İlham Əliyev özünün tvitter hesabında cəbhədə yaranan gərginlikdən yazıb. Axar.az xəbər verir ki, prezident müharibəyə getmək istəyən könüllülər barədə bunları qeyd edib:**

"Son günlər ərzində erməni işğalçı qüvvələrinin hücumları nəticəsində bizim ordumuz itkilər vermişdir, bir neçə hərbçi şəhid olmuşdur. Allah onlara rəhmət eləsin! Ancaq onların qanı yerdə qalmayıb. Son hadisələr bir də onu göstərdi ki, cəmiyyətdə vətənpərvərlik ruhu çox yüksəkdir. Yüzlərlə müraciətlər olunur, cəbhə bölgəsinə Azərbaycanın digər bölgələrindən gənclər təşrif buyurur, öz arzularını ifadə edirlər. Onlar könüllülər kimi ərazi bütövlüyümüzün bərpasında iştirak etmək istəyirlər. Hesab edirəm ki, hələ buna ehtiyac yoxdur".

# "Mən heç yerə qaçmamışam"

**Kənd təsərrüfatı nazirinin sabiq müavini Aslan Aslanov ölkədən qaçması və pullarını xaricə çıxarmağa cəhd göstərməsi barədə bəzi mətbu orqanlarda yayılan məlumatlara münasibət bildirib.**

Sabiq nazir müavini A.Aslanov publika.az-ın redaksiyası ilə əlaqə saxlayaraq deyib ki, bir sıra mətbu orqanlarda onun ölkədən qaçması və digər məsələlər barədə yazılanlar yalandır:

"Mən heç yerə qaçmamışam, hazırda da Bakıdayam. Bundan əlavə, Yeni Azərbaycan Partiyasının (YAP) bütün tədbirlərində yaxından iştirak edirəm. Haqqımda yazılan məlumatlar dezinformasiyadır. Mənim guya ölkədən pul çıxarmağım barədə də yayılan məlumatların hamısı yalandır. Mənim heç bir biznesim yoxdur".

Xatırladaq ki, qaynar.info-ya daxil olan məlumatda Aslan Aslanovun ölkədəki pullarını yenidən xaricə çıxarmağa cəhd göstərdiyi iddia olunur.

# "Türkiyə sərhədlərini türkmənlərə bağlayıb"

### MHP millət vəkili 2 milyon suriyalını sənədsiz ölkəyə buraxan AKP-nin İŞİD terrorundan Türkiyəyə sığınmaq istəyən 20 min türkməndən sənəd tələb etməsini insanlıq suçu adlandırıb

**Türkiyə İraq türkmənlərinə sərhədlərini qapadıb. Belə bir iddia ilə MHP-nin İqdır millət vəkili Sinan Oğan Türkiyə Böyük Millət Məclisində çıxış edib. Oğanın "niyə Türkiyə iqtidarı türkə bu qədər düşməndir", - sualı parlamentdə yumruq davasına qədər uzanıb.**



Sinan Oğan

MHP millət vəkili Türkiyəni terrorçu qrupları dəstəkləməkdə də suçlayıb: "Siz necə iqtidarsınız? Orada türkmən qadınlar zorlanır, heç bu hadisələri qınamırsınız da. Türkmənlərə Türkiyə qapısını bağlamısınız. Türkmənlərin ac, susuz qalmasına sizin bu qədər laqeyd qalmanızın hesabını Allah sizdən tələb edəcək. Türkmənlərlə danışıram, deyirlər ki, Türkiyə bizə yardım etmir. Orada aclıqdan, susuzluqdan ölən uşaqlar var. Buna üsyan etməyib, nəyə üsyan edək? AKP-nin prezidentliyə namizədi meydanlardan Qəzzaya salamlar göndərir. O salamlardan niyə Tələfərə yollanmır? Türk olduqları üçünmü? Çində - Doğu Türküstanda iki kənd yerlə bir edilib. Səbəbləri oruc tutmaları, müsəlman, türk olmaları. Türkiyə buna da səssiz qaldı. Tələfərdə milli qibləgah olaraq gördükləri Türkiyədən dəstək gözləyən minlərlə türk var. Bu zülmün durması üçün Türkiyə nə edib? Xarici işlər nazirimiz niyə görünmür, niyə məclisə hesabat vermir? Türkiyənin xarici siyasəti ilə bağlı suallarımızı kənd təsərrüfatı nazirinə verməliyik? Türkmənlər Türkiyəyə gəlmək istəyir, sərhəd qapısında insanlar bizi qurtarın deyib yalvarır. Dünyadakı məzlum, kimsəsiz türkün arxası, dayağı Türkiyə dövləti olmamalıdırmı? Türkmən türkəm, müsəlmanam deyir, ona sərhədi niyə bağlayırsınız? Nə haqqınız var buna? Onların günahı türk olmalarıdır? Onlar ərəb olsaydı, sərhədi o dəqiqə açardınız. Niyə türkməndən pasport istəyirsiz? AKP sərhədi keçən neçə ərəbdən, neçə suriyalıdan pasport istəyib? 50 min türkmən bizə yük olmaz. Türk milləti 1,5 milyon ərəbə baxır, 20 min qardaşımıza da baxarıq. Açın sərhədləri, türkmənlər gəlsin, ya da gedin orada türkmənin haqqını müdafiə edin. Siz türk millətinin hökumətisinizsə dünyanın harasında bir türkün burnu qanasa məsuliyyətinin bir hissəsi sizin üzərinizdədir".

> **"Türk milləti 1,5 milyon ərəbə baxır, 20 min qardaşımıza da baxarıq. Açın sərhədləri, türkmənlər gəlsin, ya da gedin orada türkmənin haqqını müdafiə edin"**

**AKP-lilər Sinan Oğanın bu sözlərini etirazlarla qarşılayıb. Onların cavabını MHP millət vəkili tarixçi professor Yusuf Halaçoğlu verib:** "3 gün Qəzza üçün yas elan edirsiniz, niyə türkmənlər üçün yas elan etmirsiniz?"

Bunun ardınca parlamentdə MHP və CHP millət vəkilləri arasında əlbəyaxa dava olub. 60-a yaxın AKP-li millət vəkili Sinan Oğanı əhatəyə alaraq yumruqlamağa başlayıb.

Parlamentin intizam komissiyası olayı pisləyən bəyanat yayıb.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014

# Soçi müəmması

## Sərkisyanın Rusiyaya getməyəcəyi xəbəri yayıldı və təkzib edildi; həmsədrlərin isə danışıqlara qatılmayacağı açıqlandı

**Azərbaycan və Ermənistan prezidentlərinin Soçi görüşü haqda ziddiyyətli xəbərlər yayılıb. Əvvəl erməni mətbuatı Ermənistan prezidenti Serj Sərkisyanın görüşdə iştirak etmək istəmədiyinə dair xəbərlər yayıb. "Novosti Armeniya" yazıb ki, erməni politoloqlar baş nazir Ovik Abramyanın prezidentlərin görüşü ilə bağlı bəyanatını real hesab etmir: "Çünki Abramyan çox vaxt bəyanat verir və çox vaxt onun bu bəyanatının nəticəsi olmur".**



Günün sonunda isə məlum olub ki, avqustun 8-də Ermənistan prezidenti Soçiyə işgüzar səfərə yollanacaq. APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, avqustun 9-da S. Sərkisyanın Rusiya prezidenti Vladimir Putinlə görüşü keçiriləcək.

Erməni tərəfi Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli yollarının müzakirəsi üçün Rusiya, Ermənistan və Azərbaycan prezidentlərinin üçtərəfli görüşündə iştirak etməyə hazır olduğunu bildirib.

Avqustun 7-də o da məlum olub ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), İqor Popov (Rusiya), Pyer Andriye (Fransa) Soçi görüşündə iştirak etməyəcəklər. ABŞ-ın Ermənistandakı səfirliyindən "Armenpress"ə bildirilib ki, həmsədrlərin Soçiyə səfəri gündəmdə deyil.

Prezidentlərin sonuncu görüşü ötən il noyabrın 19-da Vyanada keçirilib. Avqustun 8 və 9-u tarixlərində hər iki prezident Rusiya dövlət başçısı Vladimir Putinlə ayrı-ayrılıqda görüşəcəklər.

***

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, indiki şəraitdə Soçi görüşündən nəticə gözləməyə dəyməz. Siyasi şərhçi bu qənaətdədir ki, Azərbaycan hərbi üstünlüyü ələ almalıdır:** "Yalnız bu halda Qərb, ATƏT, Rusiya görəcək geri addım atmırıq. Ermənistanı hərbi üstünlüyü ələ almadan danışıqlar masasında güzəştə getməyə məcbur edə bilməyəcəyik.

Hərbi üstünlük bizdə olsaydı, Soçi görüşünün bir nəticəsi də ola bilərdi. Ermənilər rayonları boşaldardı, Rusiya ermənilərə deyərdi ki, bölgədə sabitlik olsun.

Rusiya Ermənistanı indi zəif düşürmək istəmir. Putin indiyə qədər prezidentlərin görüşünü təşkil etməyib. Bəyənmədiyimiz Medvedyev 10 belə görüş təşkil etmişdi. Yenə deyirəm ki, status-kvo ilə Qərb və Rusiya razılaşır".

**Politoloq bildirir ki, Soçiyə gedən yol Ağdamdan keçir:** "Mən özüm də üçüncü ölkələrdə görüşlərdə iştirak edirəm. Bilmək lazımdır ki, ermənilər güc görməyincə, geri çəkilməzlər. Güc olsa Ermənistan hökuməti öz ictimaiyyətini başa salmalı olacaq ki, rayonları boşaldaq, sabitlik olsun. "Yeni Müsavat"da məqalənin başlığı vardı - Soçidən əvvəl Ağdama. Mən də buna qoşularaq düzəliş edərdim ki, Soçiyə gedən yol Ağdamdan keçir".

❑ **E.SALAMOĞLU**

# Ayrıca kəşfiyyat qurumunun yaradılması təklifi müsbət qarşılanır

## İlham İsmayıl: "Dünyanın böyük dövlətləri kəşfiyyatlarına böyük pullar ayırırlar"

**NATO Əməkdaşlıq İnstitutu Azərbaycanda güclü bir kəşfiyyat və əks-kəşfiyyat qurumunun yaradılması təklifi ilə çıxış edib. Bu barədə institutun direktoru Fərrux Məmmədov musavat.com-a məlumat verib. F.Məmmədov deyib ki, Azərbaycan dövləti üçün Mərkəzi Kəşfiyyat Agentliyinin yaradılması zəruridir. Sitat: "Maddi-texniki bazası güclü olan bir kəşfiyyat nazirliyinin yaradılması vacibdir və bu, regionda baş verə biləcək bütün hadisələri dövlətçiliyin xeyrinə dəyişə bilər".**

F.Məmmədov deyib ki, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsas rol oynayan dövlətlərdən biridir: "Rusiya üçün bu, qıcıqlandırıcı amildir. Rusiya heç bir beynəlxalq hüquq tanımayan bir prosesə start verib və nəticələrin necə olacağını heç kim deyə bilməz. Ona görə öz kəşfiyyat peyki olan, güclü mütəxəssislərdən formalaşan, hətta öz akademiyası olan Azərbaycan Mərkəzi Kəşfiyyat Agentliyinin yaradılmasına ehtiyac var. Dünyanın siyasi xəritəsi yenidən formalaşdığı bir vaxtda Azərbaycanın güclü olması mütləqdir. Burada atılacaq olan yanlış bir addım ölkəni xaosa və ya işğala sürükləyə bilər. Bu prosesdən sağ çıxmaq ucun mütləq güclü informasiya axını təmin olunmalıdır. Bu informasiya axını həmçinin düzgün əsaslarla təmin olunmalıdır. Əgər bu informasiyalara görə xarici və daxili siyasət kursu düzgün müəyyənləşərsə, o zaman dövlətçiliyimizi daim qoruyub saxlaya bilərik. Bu nazirliyin yaradılması üçün Azərbaycan dövlətinin gücü var. Ölkə zəngin ölkədir və onun maddi bazası bu kimi böyük bir gücün yaradılmasına imkan verir. Bu nazirlik (agentlik) Azərbaycana nəinki regionda, həmçinin daha geniş coğrafiyada əlavə güc qatacağına inanırıq!"



**Mövzu ilə bağlı "Yeni Müsavat"a şərh verən sabiq MTN əməkdaşı, Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri İlham İsmayıl yeni kəşfiyyat qurumunun yaradılmasının mümkün olduğunu deyir. Hazırda kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin MTN tərəfindən həyata keçirildiyini qeyd edən ekspertin fikrincə, Azərbaycanın imkanları bunu etməyə əsas verir:** "Azərbaycanda kəşfiyyat və əks-kəşfiyyat qurumları bir qurumda Milli Təhlükəsizlik Nazirliyinin tərkibindədir. Rusiya və ya ABŞ-da olduğu kimi ayrı qurumlar deyil. Rusiyada Xarici Kəşfiyyat İdarəsi mövcuddur. Amerikada isə Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ-CİA) var. Daha bir kəşfiyyat strukturu isə Müdafiə Nazirliyinə məxsusdur. Bütün dünya ölkələrinin müdafiə nazirliklərində olduğu kimi hərbinin kəşfiyyatı olmalıdır. Məsələn, Rusiyanın ən böyük kəşfiyyat qurumu elə məhz Müdafiə Nazirliyinə məxsusdur. "QRU" dediyimiz Baş Kəşfiyyat İdarəsi. Bu ölkələrdə kəşfiyyat qurumları ayrıdır. Çünki bunlar böyük ölkələrdir, onların kəşfiyyat qurumlarının böyük vəzifələri var. Ancaq bizdə bu qurumlar MTN-in nəzdindədir.

İndiki vəziyyətdə bu qurumları ayırmaq pis olmazdı. Yəni burda səlahiyyətin daha da genişlənməsindən söhbət gedir. Ancaq kəşfiyyat elə bir qurumdur ki, bunun üçün kadrlar hazırlanmalıdır, məktəblər keçilməlidir. Ancaq indi MTN-in buna nə qədər hazırlığının olması, kadr potensialının olması haqda mənim məlumatım yoxdur".

**Ayrıca kəşfiyyat strukturunun informasiya siyasəti baxımından faydalı ola biləcəyini qeyd edən İ.İsmayılın qənaətinə görə, bu cür qurumların yaradılması üçün baza formalaşdırılmalıdır:** "Azərbaycana da Ermənistanla müharibə şəraitində olduğuna, ölkədə, regionda geopolitik nöqteyi-nəzərindən böyük gəlişmələr olduğuna, hər zaman gərginliklər mövcud olduğuna görə informasiya lazımdır. Kəşfiyyat nədir, informasiya. Dünyanın böyük dövlətləri kəşfiyyatlarına böyük pullar ayırırlar. Azərbaycanda da belə bir kəşfiyyat qurumunun yaradılması və ona xüsusi səlahiyyətin verilməsi yaxşı olardı".

❑ **KƏNAN**



# Dini Komitə sədrinin Sumqayıta getməsinin sirri...

## Mübariz Qurbanlının yeni sədri qismində ilk ziyarətini bu şəhərə etməsi təsadüfi sayılmır...

**Ötən gün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Sumqayıt şəhərində dini icmaların nümayəndələri ilə görüş keçirib.**

Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının I müavini, Dini İşlər üzrə Komissiyanın sədri Rövşən Sadıxov, Dini Komitənin sədr müavini Gündüz İsmayılov, Sumqayıt şəhəri, Abşeron və Xızı rayonlarının dini icmalarının nümayəndələri iştirak ediblər.

Görüşdə çıxış edən komitə sədri Mübariz Qurbanlı son vaxtlar qeyri-ənənəvi cərəyanların din adından istifadə etməklə öz ideologiyalarını yaymağa çalışdığını deyib: "Biz bunu dünyanın müxtəlif ölkələrində görürük. Azərbaycanda bu istiqamətdə problemlər ciddi olmasa da, biz bundan tam sığortalandığımızı da deyə bilmərik. Amma düzgün dini təbliğat, insanlara dinin ali prinsiplərini mükəmməl formada çatdırmaq dini icmaların əsas vəzifəsidir".

Bəs görəsən, Mübariz Qurbanlının ilk səfərini məhz Sumqayıtdan başlamasının səbəbi nədir?

İstisna deyil ki, Sumqayıtda qeyri-ənənəvi dini cərəyanların artması və onlar arasında hətta silahlı qarşıdurmaların yaranması, eləcə də son dövrlərdə Suriyaya cihada gedənlər arasında sumqayıtlı gənclərin üstünlük təşkil etməsi komitə sədrini ilk olaraq məhz bu şəhərə baş çəkməyə vadar edib.

**Lakin "Əbu-Bəkr" məscidinin imam-camaatı Hacı Qamət Süleymanov musavat.com-a açıqlamasında bu ehtimalların əsassız olduğunu bildirib:** "Komitə sədri qərara gəlib ki, birinci səfərini Sumqayıta etsin. Burada heç bir səbəb və ya problem yoxdur. Yəqin ki, digər şəhərlərə də gedəcək".

**Sumqayıt şəhərində müxtəlif cərəyanlara məxsus dini icmalar arasında problemlərə gəlincə, Hacı Qamət bildirib ki, bu istiqamətdə aparılan işlər çox zəifdir:** "Yeni sədr yəqin ki, bu yöndə görüşləri artıracaq. İş əsnasında hər şey görünəcək. Düşünürəm ki, bu cür görüşlər daha çox keçirilməlidir. Dini icmalar arasında normal münasibətlərin formalaşmasında belə tədbirlər çox faydalı və səmərəli ola bilər".

**DEVAMM sədri Hacı İlqar İbrahimoğlu isə dini radikalizmin aradan qaldırılması üçün ən vacib addım kimi vicdan azadlığının təmin olunmasını görür:** "Hazırda ölkəmiz çox məsuliyyətli dönəmini yaşayır. Sərhəd bölgəsindən tutmuş, regionda və dünyada baş verənlər çox ciddi çağırışlar və məsuliyyətlər yaradır. Sözsüz ki, ölkənin daxilində dinlə bağlı siyasət vicdan azadlığının təmininə yönəlməlidir. Bu, həm də radikalizm qarşısını alan və vəziyyəti müsbət tərəfə sığortalayan ən optimal yoldur. Bu istiqamətdə addımlar atılarsa, inşallah, ölkəmiz üçün hər mənada uğurlu olar".

❑ **Nərgiz LİFTİYEVA**



Arif və Leyla Yunus

# Həbsdəki məşhur ər-arvadın həyatı təhlükədə

## Xəstəlikdən əziyyət çəkən Leyla və Arif Yunuslara dərman verilmir; işə Qızıl Xaç qarışa bilər

**Həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri (SDİ) Leyla Yunusun səhhəti günbəgün pisləşir. Bu barədə əvvəlki saylarımızda da məlumat vermişdik. Şəkər xəstəliyindən əziyyət çəkən hüquq müdafiəçisinin səhhəti həyat yoldaşı Arif Yunusun həbsindən sonra daha da pisləşib. L. Yunusun saxlandığı Bakı İstintaq Təcridxanasının daxili qanunlarına görə, məhbuslara lazım olan ləvazimat və yeməklər yaxın qohumları tərəfindən gətirilməlidir.**

Yunusların isə Bakıda yaxın qohumları olmadığına görə, onsuz da ağır olan vəziyyətləri daha da ağırlaşır. Təcridxana daxilində səhiyyə xidmətinin bərbad vəziyyətdə olduğu hər kəsə məlumdur. Bu baxımdan ağır xəstəlikdən əziyyət çəkən Yunusların həyatlarına təhlükələr daha da ciddiləşir. Onların yeganə övladı Dinara Yunus hazırda Hollandiyada yaşayır. O, sosial şəbəkələrdə paylaşdığı statusda da valideynlərinin həyatına olan təhlükələri göstərib. Bununla bağlı beynəlxalq təşkilatlara müraciət edərək, kömək istəyib.

**L.Yunusun vəkili Cavad Cavadov yaranan problemlərlə bağlı danışıqlar apardıqlarını bildirdi:** "Bu barədə istintaqa artıq müraciət ünvanlamışıq. Bizə elə gəlir ki, bunu anlayışla qəbul edirlər. Söz veriblər ki, qısa müddət ərzində bu məsələni həll edəcəklər. Biz Leyla və Arif Yunusa yemək və başqa ləvazimatları apara biləcək insanların adlarını da onlara təqdim etmişik. Bu şəxslər onların yaxın ailə dostlarıdır. Deyiblər ki, biz çatdıra bilərik. Sadəcə, gərək icazə olsun. İstintaqdan bizə bu barədə təcridxana rəhbərliyinə məktub göndərəcəklərinə dair söz veriblər. Çox çalışırıq ki, bu məsələni həll edək. Çünki bu, həyati bir məsələdir. Həll olunmasa, çox ağır fəsadlar verə bilər".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı da yaranmış situasiyadan narahatlığını dilə gətirdi:** "Hazırda Leyla xanım və Arif bəy Kürdaxanıda saxlanılır. Ora gedəndə ən azı 4-5 saat növbədə gözləmək lazım gəlir. 3 aydır müalicədəyəm. Təcridxana qanunlarına görə, məhbusa lazımi əşyalar qohumları tərəfindən aparılmalıdır. Çox narahatıq. Avropada yaşayan qızı da valideynlərinin həyatından nigarandır. Xüsusilə dərman və yeməklər aparılmamasından. Təbii ki, icazə versələr, təcridxanaya getməyi düşünürəm. Sadəcə, hər şeyin öz qayda-qanunları var. Qızı ilə bu barədə ətraflı danışmışam. Bu məsələ ilə bağlı o, əlindən gələni edir".

Onu da qeyd edək ki, Leyla Yunus və həyat yoldaşı Arif Yunusun həbsi ilə bağlı beynəlxalq təşkilatların və Avropa ölkələrinin Azərbaycan hakimiyyətinə çağırışları gündən-günə artır.

Son olaraq Fransa Xarici İşlər Nazirliyi məlumat yayaraq onların həbsindən təəssüfləndiyini bildirib. Fransa XİN-in mətbuat xidmətinin məlumatında deyilir ki, Fransa hər zaman müdafiə və insan hüquqlarına hörmətə sadaqətli olub.

Ölkə daxilində də Leyla və Arif Yunusların müdafiəsinə qalxanlar az deyil. Yunuslarla bağlı yaradılan Müdafiə Komitəsinin üzvü, Milli Şuranın sədri Cəmil Həsənli onların məsələsi ilə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı ofisində olub. O, ciddi xəstəliklərdən əziyyət çəkən Yunusların vəziyyətinin nəzarətə götürülməsini, onların lazımi dərmanla təmin edilməsini BQXK-dan xahiş edib.

**Hazırda Almaniyada yaşayan hüquq müdafiəçisi, "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin rəhbəri Əlövsət Əliyev də Arif Yunusun qanunsuz həbs olunduğunu bildirib:** "Arif Yunusun həbsi belə bir qənaət yaradıb ki, hakimiyyət ölkədəki bütün hüquq müdafiəçilərinə seçim imkanı buraxmır, ya zindan, ya mühacirət... Belə vəziyyətdə Azərbaycanda qalmaq və vətəndaş cəmiyyəti sistemində çalışmaq, eyni zamanda obyektiv mövqe nümayiş etdirmək mümkün deyil. Ona görə də xaricdə fəaliyyət göstərmək daha əlverişlidir.

Mən Arif Yunusu çox yaxşı tanıyıram. Bir layihələrdə iştirak etmişik. Müxtəlif ölkələrin təmsil olunduğu tədbirlərdə Azərbaycanı həmişə layiqli təmsil edib".

Xatırladaq ki, Leyla Yunus iyulun 30-da həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 274( dövlətə xəyanət) ,178 ( dələduzluq), 192 (qanunsuz sahibkarlıq) və 223 (vergidən yayınma) maddələri ilə ittiham irəli sürülüb. Həyat yoldaşı Arif Yunus isə avqustun 5-də saxlanılıb. O, 274-cü və 178-ci maddələrlə təqsirləndirilir.

❑ Cavanşir ABBASLI

# Hesablarına həbs qoyulan QHT-lər çətin durumda




## Layihələr yarımçıq qalıb, işçilərə əmək haqqı verilmir, bir çox QHT-lər Avropa Məhkəməsinə hazırlaşır

**Hesablarına həbs qoyulan və dondurulan QHT-lər normal fəaliyyət göstərə bilmir, ofis xərclərini qarşılamaq mümkün olmur, həmçinin işçilərin əmək haqqı gecikdirilir. Layihələrin işlənilməsi üçün Ədliyyə Nazirliyindən alınmalı olan icazə-bildirişlərlə bağlı da bir çox hallarda süni maneələr yaradılır.**

Qeyd edək ki, məsələ beynəlxalq aləmin də diqqətindədir. Son olaraq Avropa İttifaqının xarici siyasət üzrə komissarı Ketrin Eşton və Genişlənmə üzrə komissar Ştefan Füle bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin təqibini pisləyən növbəti bəyanat yayıb. Çətinlik və təhlükə qarşısında qalan QHT rəhbərləri isə vəziyyətdən narahatlıqlarını bildirirlər.

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının rəhbəri Mirvari Qəhrəmanlının sözlərinə görə, ölkədə 20-yə qədər QHT-nin hesabları dondurulub, ya da həbs qoyulub:** "Hətta şəxsi hesablara da həbs qoyulub. Mənim depozit hesabıma da həbs qoyublar. Bir ay əvvəl bu proses başlayıb və davam edir. Mənimlə bağlı Nəsimi Rayon Məhkəməsinin qərarı olub. Apelyasiya şikayəti verdik, məhkəmə əvvəlki qərarı qüvvədə saxladı. Nəticədə layihələrimiz yarımçıq qalıb, işləri davam etdirmək mümkün deyil. Vəziyyət bu yerdədir ki, işçilər iki aydır



Mirvari Qəhrəmanlı



Elçin Abdullayev



Mehriban Zeynalova

əməkhaqqı ala bilmir. Çox çətin durum yaranıb, yarımçıq məhkəmə işlərimiz var, hüquqi yardımları davam etdirməliyik. Komanda qərara alıb ki, bacardıqları qədər pulsuz işləsinlər. Amma ofisin xərclərini də vermək mümkün deyil".

**Hüquq müdafiəçisi qeyd edib ki, bu vəziyyətə salınan QHT-lər işlərini Avropa Məhkəməsinə qədər aparacaqlar:** "İş Avropa Məhkəməsinə xüsusi qaydaya göndəriləcək. Biz orada işi udacağımıza inanırıq".

**Demokratik Təsisatlar və İnsan Haqları İctimai Birliyinin rəhbəri Elçin Abdullayev isə bildirib ki, hesabları bağlanan QHT-lərin vəziyyəti gərgindir**: "Bəzi QHT-lərdə yoxlamalar gedir. Bununla bağlı prezidentə və QHT-lərə Dövlət Dəstəyi Şurasına da müraciət etmişik. Hələ də proses dondurulub. Bu gün hesabında problem yaradılan QHT-lərin sayı 30-dan çoxdur. Əksər QHT-lər hesab edir ki, nə qədər bu prosesdə sakit dursalar, problem bir o qədər müsbət həll olunar. Çünki mətbuata çıxan, məsələni ictimaileşdirən QHT-lərin durumu daha da ağırlaşır".

**Onun sözlərinə görə, hesabın dondurulması ilə bağlı verdikləri apelyasiya şikayəti təmin olunmayıb:** "Xətai Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb".

**"Təmiz dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova isə bildirib ki, onlar Ədliyyə Nazirliyinə sənədləri vaxtında göndərə bilmədiklərindən, iki ay müddətinə maliyyə əldə edə bilməyiblər:** "Bizim hesabımız dondurulmayıb, ancaq Ədliyyə Nazirliyinin rəsmi sənədi, icazəsi olmalı idi ki, biz maliyyə ala bilək. Bunu almaq üçün də lazımi sənədləri toplamaq lazım idi. Biz sənədləri vaxtında toplayıb sənədi ala bilmədik. Reyestrdən çıxarış, layihələr barədə məlumat vermək, layihələrin tərcüməsi lazım idi. Hazırda fəaliyyət göstəririk".

**M.Zeynalovanın sözlərinə görə, avqustun 7-də QHT-lərə Dövlət Dəstəyi Şurasının iclası olub və oraya aparıcı QHT-lərin təmsilçiləri dəvət olunublar:** "Problem müzakirə olundu, qurumun rəhbərinin diqqətinə çatdırıldı. O da qeydlərini götürdü, vəziyyətin düzələcəyinə ümid etmək olar".

**"İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyinin sədri Azər Mehtiyev isə deyir ki, onlar hələ ki fəaliyyət göstərirlər:** "Bizim Ədliyyə Nazirliyindən bildirişlərimiz də var". **Sənədlərlə bağlı çətinliklərdən danışan A.Mehtiyevin sözlərinə görə, bildiriş almaqla bağlı sənəd əldə etmək üçün müqavilələr tam tərcümə olunmalıdır:** "Bu, bəzən yüz səhifə edir, onun notarius təsdiqi var, bu proses xeyli gərginlik yaradır, xüsusilə də süni maneələr də yaradırlar. Bu xərclər layihədə əhəmiyyətli məbləğ edir, ancaq layihədə bu xərclər nəzərə alınmır. Bu, əlavə xərcdir. Bəzən təşkilatlara 500-1000 manat civarında başa gəlir".

Qeyd edək ki, narazı QHT-lər bir müddət əvvəl Prezident Administrasiyası qarşısında aksiya da keçiriblər. QHT rəhbərləri Vətəndaş Cəmiyyəti Məşvərət Şurasının yaradılmasını da qərara alıblar.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014



# Böyük dövlət, böyük bəla - Rusiya

**Hüseynbala SƏLİMOV**

## (İnsanlar azadlıq haqqında düşünürsə...)

**Rusiya mətbuatında qurdalanmağı sevirəm. Təbii ki, saytlar vasitəsilə. Səbəbi də budur ki, Azərbaycanın kafi dərəcədə mükəmməl təhlükəsizlik konsepsiyası, hərbi doktrinası olmasa da, mövcud olan sənədlərdə isə Rusiya özünə layiq yer almasa da mən belə fikirləşirəm ki, bu ölkə Azərbaycanın təhlükəsizlik arxitekturasında mühüm yer tutacaq, bir az da sadə dildə desək, o, Azərbaycan üçün hələ uzun müddət başağrısı olacaq...**

Adətən bütün saytların iki bölməsinə fikir verirəm: siyasət və ictimaiyyət. Bir siyasətlə ölkədəki tendensiyaları tutmaq olmur. Vacibdir ki, cəmiyyətdə hansı tendensiyaların olduğuna baş vurasan.

Rusiya imperiyadır. Bütün imperiyalar kimi o, da avtoritar siyasi sistemdir. Hələ ki, dünyada demokratik imperiyalar qeydə alınmayıb, baxmayaraq ki, Rusiya mətbuatı adətən ABŞ-ı belə statusda təqdim edir.

Amma indi ABŞ-la bağlı işim yoxdur. Sözüm-söhbətim Rusiya haqqındadır. Qərəz, gəlim mətləb üstünə. Rusiya qəzet-saytlarının birində fizika-riyaziyyat elmləri doktorunun futbol haqqında yazısına rast gəldim.

Mən idman mövzusunu o qədər də sevmirəm, idman qəzetlərini də oxumuram. Gəl, bu yazı qeyri-idman qəzetində dərc olunduğu, qeyri-idmançı tərəfindən yazıldığı üçün maraqlı göründü...

Müəllif nəyə diqqət çəkir? O, idmanın bir növünü-futbolu azad insanların oyunu hesab edir, onun İngiltərə kimi azad bir ölkədə yarandığını önə çəkir və öz hökumətinə xitabən deyir ki, siz futbola nə qədər pul qoysanız xeyri yoxdur, ona görə ki, sizin ölkənizdə azad insanlar və azadlıq yoxdur... O, hətta belə bir fakta diqqət yetirir ki, SSRİ futbolunun uğurları (Avropa kuboku, Dünya çempionatının yarımfinalı) bu ölkənin mülayimləşdiyi dövrlərə təsadüf edir...

Təbii ki, müəyyən qədər mübahisəli fikirlərdir. Onlarla razılaşmamaq, hətta ciddi mübahisələr açmaq da olar. Amma mənim üçün bu, önəmli deyil. Əsas odur ki, müəllif bir maraqlı detala diqqət çəkir-ölkənin azad olmamasına...

Məsələ bundadır ki, bir ölkədə əgər bir adam da bu haqda düşünməyə başlayırsa, deməli hələ hər şey bitməyib, nəyəsə ümid etmək olar. Bəli, deyə bilərsiniz ki, əgər ölkədə azadlıq olmasaydı o bir nəfər də danışa bilməzdi, hətta cəsarət tapıb danışsa belə bir gün ayılıb özünü ruhi xəstəxanada görərdi...

Burada qismən həqiqət var. Amma qismən. Bizim özümüzdə vəziyyət necədir? Bəli, biz çox deyə bilirik, amma bu, bizə nəyin hesabına başa gəlir, düşünürük ki, bunu izah etməyə ehtiyac yoxdur...

Azad ölkə tamam başqadır. Azad olmayan ölkələrdə azadlıq haqda fikirlər daha çox solo, bir növ monoloq xarakteri daşıyır...

Elə indi qeyd etdiyim müəllifin də cəhdi solo təsiri bağışlaya bilər. Bəli, Rusiyanın tarixində belə solo-cəhdlər olub-Radişşevi, Çaadayevi xatırlamaq kifayətdir. Məhz belə solo-cəhdlərin sayəsində indi Rusiyada nəsə var. Əgər onlar da olmasyadı ölkə indi tamam bərbad vəziyyətdə olardı...

Bizim təhlükəsizliyimiz tələb edir ki, Rusiyada insanlar azadlıq haqqında düşünsünlər. Orada insanlar azadlıq və ləyaqətli həyat haqqında düşünməyə başlasalar, deməli bu ölkədə danışmağa və razılaşmağa adam tapılacaq... Yox, əgər bu ölkənin adamları imperiyanın zombiləri kimi yaşasalar, onda bu ölkədən qorunmağın bir yolu olacaq - ondan mümkün qədər uzaq dayanmaq...

Amma bu, mümkündürmü? Mümkün olardı. Əgər Şimali Qafqaz da azad olsaydı. O vaxt bizim Rusiya ilə həmsərhəd olmaq xoşbəxtliyindən canımız qurtarardı. Amma hələ ki, bu, hansısa fantastik povestin süjeti ola bilər...

Əgər hamı azadlıq və ləyaqətli həyat haqqında düşünməyə başlasa onda belə geosiyasi transformasiyalar olmadan da keçinmək olar. Amma düşünürlərmi? Düşünəcəklərmi?

Hər halda, ümidli olmaq lazımdır. İndi 21-ci əsrdir və insanlar daha çox tələbkar olublar, nəinki əvvəlki dövrlərdə. Bu da müəyyən ümidlərə varmağa əsas verir.

Amma bu, daha çox gələcəyin işidir. Yaxın və ya uzaq, fərqi yoxdur. O dövrə qədər isə Rusiyanı diqqətdə saxlamalı və onu öyrənməliyik. Məsəl var, deyirlər ki, bir çox uşağı olan, bir də çox bilən itirməz. Rusiya böyük dövlətdi, amma eyni zamanda da böyük bəladı -bunu isə gərək heç vaxt unutmayaq...

---



# Ermənilərin istənilən obyektini məhv edəcək silahımız hansıdır?

## Üzeyir Cəfərov: "Dağlıq Qarabağdakı hərbi obyektləri sıradan çıxara biləcək ən yeni raket qurğularımız, güclü artilleriyamız var"

**"Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik. Son vaxtlar Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir".**

Bu bəyanatla prezident İlham Əliyev Ağdamdakı "N" saylı hərbi hissədə çıxış edib. Ali Baş Komandan deyib ki, bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər: "Bu gün Azərbaycan ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir".

Prezidentin Ağdamdakı müharibə ritorikalı çıxışı diqqət çəkməyə bilməz. İ.Əliyevin istənilən obyekti məhv etməyə qadir olduğumuzu deməsi konkret hansı silah-sursatı nəzərdə tutduğunu araşdırmağa əsas verir.

**Bu bəyanatla bağlı "Yeni Müsavat"a danışan hərbçi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, hava hücumuna qarşı ən müasir qurğular əldə edilib:** "Həmçinin, güclü artilleriya qurğuları alınıb, dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş təyyarələri, zirehli texnika, tanklarımız var. Əvvəlki illərlə müqayisədə Azərbaycanın silah-sursat imkanları genişlənib.

Naxçıvan və işğal olunmuş ərazilərimizdən ermənilərin Dağlıq Qarabağdakı hərbi obyektlərini sıradan çıxara biləcək texnikamız var. Belarus, Ukrayna, Rusiyadan alınmış raket qurğuları var ki, hədəfə ağır zərbə endirmək imkanına malikdir. Düzdür, ermənilərin də raket qurğuları var. Amma Azərbaycan ermənilərdən fərqli olaraq ən müasir və ən yeni raket qurğuları alıb. Prezident də çıxışında bunları nəzərdə tutub. Ermənistanda olan əksər hərbi obyektlər barəsində Azərbaycanın məlumatı var".

**Ü.Cəfərov deyir ki, Azərbaycan bircə Ermənistandakı atom elektrik stansiyasına zərbə endirməz:** "Çünki bu bütövlükdə region üçün fəlakətlə nəticələnər. Bunu da ölkə rəhbərliyi bilir. Sadəcə, hərbi obyektlərə zərbə vurmaq üçün raket avadanlıqlarımız var".

Rəsmi və qeyri-rəsmi məlumatlar da onu deməyə əsas verir ki, Azərbaycan hərbi texnikası düşməni lərzəyə salacaq gücə malikdir. Özü də söhbət təkcə Ermənistandan deyil, ondan daha güclü potensial düşməndən gedə bilər. Bəs Azərbaycanın hərbi arsenalında olduğu güman edilən və prezidentin işarə etdiyi hansı silahlar düşmənin Dağlıq Qarabağdakı istənilən obyektini məhv edə bilər?








### "MSTA-S" özüyeriyən artilleriya qurğuları

**"Msta-S" 152 mm-lik ən müasir özüyeriyən artilleriya qurğusu.** T-72 və T-80 tanklarının bazasında yığılır. Düşmənin taktiki nüvə vasitələrini, artilleriya və minomyot batareyalarını, tanklarını və digər zirehli texnikasını, HHM vasitələrini, canlı qüvvəsini, möhkəmləndirilmiş atəş nöqtələrini və digər hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Qapalı mövqedən və ya birbaşa müşahidə olunan və olunmayan hədəflərə atəş aça bilir. Qurğu atəşi avtomatik idarəetmə sistemləri ilə təchiz olunub, döyüş kompléktinə 50 mərmi daxildir. Qəlpəli-fuqas mərmiləri ilə 24 kilometr məsafədən, qaz-generator mühərrikli mərmilərlə isə 29 kilometrdən hədəfi vura bilir.

### "Smerç" reaktiv yaylım atəşi sistemləri

**Dünyada öz sinfində ən dəhşətli və dağıdıcı silahdır.** "Smerç" sistemləri 300 millimetrlik raketlərlə atəş açır, SSRİ hərbi konstruktorları tərəfindən hazırlanıb. Sistem bir neçə tip raketlərlə atəş aça bilir. Bunlardan biri döyüş başlığı kaset formasında olan raketlərdir. Bu raketin hər biri 7 minə yaxın ağır döyüş qəlpələri və 30 minə yaxın yüngül qəlpə daşıyan 72 döyüş elementinə malikdir. Ağır döyüş qəlpələri düşmənin zirehli olmayan texnikasını, yüngül qəlpələr isə canlı qüvvəsini məhv etmək üçündür. Bir "Smerç" sistemi 16 raket daşıya bilir, həmin raketlər ümumilikdə 522 mindən çox qəlpə daşıyır və bu da silahın nə dərəcədə dağıdıcı gücə malik olduğunu göstərir. "Smerç" sistemləri açıq ərazilərdə, səhrada və çöllükdə tətbiq olunmaq üçün daha əlverişlidir. 90 kilometr məsafədən hədəfi dəqiq vura bilir. Belə ki, "Smerç"lər hədəfi özü axtarıb tapan raketlər, habelə tank əleyhinə raketlərlə təchiz olunub. Bir "Smerç" sistemi tam döyüş kompleklləşdirməsində 72 yaylım atəşi aça bilir ki, bu da orta ölçülü şəhəri darmadağın etmək üçün kifayətdir. Öz dağıdıcı gücünə və taktiki-texniki göstəricilərinə görə dünyada bənzəri yoxdur. Cəmi 3 dəqiqə ərzində döyüşə hazır vəziyyətə gətirilir, düşmən hədəflərinə dağıdıcı yaylım atəşi açdıqdan sonra cəmi bir neçə dəqiqə ərzində dayandığı mövqeni sürətlə tərk edə bilir və nəticədə düşmən onun yerini aşkar edib cavab zərbəsi endirə bilmir.

### "Vena" özüyeriyən artilleriya qurğuları

Bu qurğular 1 kilometr məsafədən düşmənin möhkəmləndirilmiş atəş nöqtələrini, zirehli texnikasını və canlı qüvvəsini, minomyot batareyalarını və digər hədəflərini sıradan çıxarmaq üçün nəzərdə tutulub. Mərmi hədəfdən yayınanda növbəti mərmini hədəf düz tuşlayan avtomatik sistemlə təchiz olunub. Əsas silahı 120 mm-lik silahdır, o özündə tırtıl-top və minomyot funksiyalarını birləşdirir. 120 mm-lik bütün növ mərmilərlə atəş aça bilir. Atəşi idarəetmə sistemi tamamilə avtomatlaşdırılıb. Bundan başqa hədəfi lazerlə aşkar etməyə imkan verən "Ştora-1" qurğusu, 12 qumbaraatan və 81 mm-lik tüstü qumbaraları atan sistemə malikdir.

### TOS-1A "Solntsepek" ağır odsaçan sistemləri

**TOS-1A "Solntsepek" ən yeni silahlardan biridir.** Ağır odsaçan sistemləri "Buratino" odsaçan sistemlərinin bazasında yığılıb, lakin taktiki-texniki göstəriciləri xeyli üstündür. Sisteminin tərkibinə BM-1 döyüş maşını, 220 mm kalibrli 24 raket yönləndirici, nəqliyyat-doldurma maşını daxildir. "Solntsepek" 3.6 kilometrdən 6 kilometrədək məsafədən 2 hektardan 6 hektaradək ərazini darmadağın etmək gücündədir. Düşmən piyadasının atəş dəstək nöqtələrini, canlı qüvvəsini, yüngül zirehli texnikasını hücum və müdafiə mövqeyində məhv etmək üçün nəzərdə tutulub. Xüsusən dağlıq şəraitdə tətbiq əlverişlidir. Belə ki, "Solntsepek" sistemlərinin açdığı yaylım atəşi nəticəsində dağlıq ərazilərdə güclü zərbə dalğası yaranır, yer-yerindən oynayır və qayalıqlar uçub dağılır, daş yığınları əmələ gəlir və bütün canlı sistem məhv olur. Hədəfi 6 min metrdən dəqiq vurmağa imkan verən avtomatlaşdırılmış sistemlə təchiz olunub.

**E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014

# Siyasilər prezidentin cəbhədə verdiyi bəyanatları şərh etdilər

## **İqbal Ağazadə:** "Bunlar nəticəni yox, situasiyanı, ritorikanı dəyişə bilər"

## **Fəzail Ağamalı:** "Soçi görüşü öncəsi hərbi geyimdə Ermənistana və onun himayəçilərinə mesaj verdi ki..."

## **Vəfa Quluzadə:** "Rusiyaya xəbərdarlıq olundu ki, bizi qorxutmayın, Avrasiya İttifaqına görə təzyiq göstərməyin"



**"Bu gün təmas xəttində vəziyyətlə tanış oluram. Müdafiə Nazirliyi müntəzəm olaraq operativ məlumat verir. Vəziyyət tam nəzarət altındadır. Bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan ordusu tam üstünlüyü əldə edib".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 6-da Ağdamdakı "N" saylı hərbi hissədə hərbi qulluqçular qarşısında çıxışında deyib.

**Prezident bildirib ki, Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər:** "Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilib. Ordumuzda ən güclü artilleriya qurğuları var. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar - bütün bunlar bu gün Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki təmin edilib. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər.

Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim bölgələrimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Eyni zamanda düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilib və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz".

**Ali Baş Komandan deyib ki, bu gün düşmən panikadadır, isterikadadır:** "Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəfdə nələr baş verdiyini biləк. Biz tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin - işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə, Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər.

Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıb. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndində Azərbaycan bayrağı qaldırılacaq. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq.

Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir. Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlayıb. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70-80 min vətəndaş həmişəlik tərk edirdi. Ancaq son günlər ərzində bu köç daha da güclü olub. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Bizim işimiz haqq işidir. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapmayana qədər daim öz prinsipial mövqeyimizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır».

"Soçi görüşündən əvvəl, ümumiyyətlə Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərindən qabaq verilən bəyanatlardan asılı olmayaraq proqrama uyğun bir yanaşma var. ATƏT-in Minsk Qrupunun müəyyən etdiyi danışıqlar prosesi aparılır.

Söhbət bu danışıqlarda Madrid prinsiplərinin razılaşdırılmasından gedir. Bu bəyanatlar isə nəticəni yox, situasiyanı, ritorikanı dəyişə bilər. Azərbaycan və Ermənistanın mövqelərində fundamental dəyişikliklər gözlənilmir".

Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə prezidentin Soçi görüşündən əvvəl Ağdamda verdiyi bəyanatlarla bağlı danışarkən belə qeyd etdi. İ.Ağazadənin sözlərinə görə, Soçi görüşündən Azərbaycanın xeyrinə bir perspektiv gözləmir və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi irəliləyiş olacağı inandırıcı deyil.

Deputat hesab edir ki, son bir həftə ərzində cəbhə xəttində baş verənlər ermənilərin prosesi fərqli istiqamətə sürükləmək, Azərbaycanın Avrasiya İttifaqına qoşulmağa təzyiq etmək vasitəsidir.

İ.Ağazadə münaqişənin həlli üçün indiki şəraitdə əlverişli imkan yarandığını düşünmür.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə hesab edir ki, prezident Ağdama səfər etməklə əsgərlərimizlə bir yerdə olduğunu nümayiş etdirdi:** "Ölkə prezidentinin cəbhə bölgəsinə getməsi, əsgərlərlə, zabitlərlə görüş keçirməsi, situasiyanı qiymətləndirməsi, vətənin ərazi bütövlüyü uğrunda fədakarlıq edən hərbçilərimizi mükafatlandırması ciddi addım idi. Eyni zamanda cəbhə bölgəsində Ermənistana və dünyaya açıq mesajlar verdi ki, torpaqların azad edilməsindən başqa alternativ yoxdur. Ali Baş Komandanın hərbi geyimdə çıxış etməsi, prosesləri izləməsi, ATƏT-in Minsk Qrupunu haqlı olaraq kəskin tənqid etməsi ciddi məqamlardan xəbər verir".

**F.Ağamalının fikrincə, prezidentin Ağdama getməsi və çıxış etməsi əslində iqtidar - müxalifətli bütün cəmiyyətin torpaqlarımız müharibə yolu ilə azad etməyə köklənməsinin bir məntiqi nəticəsi idi:** "Müxalifət partiyalarının bəyanatları, cəmiyyətin, ordunun müharibə əhval-ruhiyyəsinə köklənməsi göstərdi ki, xalq bir yerdədir. Prezidentin də bunun davamı olaraq Ağdama getməsi və açıq mesajlar verməsi məntiqli idi. Prezident Soçi görüşü öncəsi hərbi geyimdə Ağdamdan Ermənistana və onun himayəçilərinə mesaj verdi ki, danışıqlar nəticə verməsə, işğal olunmuş torpaqları hərbi yolla azad edəcəyik".

**Deputat cəbhədə baş verənləri Rusiyanın Avrasiya İttifaqına görə Azərbaycana təzyiq vasitəsi olduğunu da istisna etmir:** "Ermənistanı müəyyən qüvvələr himayə edir, eləcə də Rusiya. Dünya birliyi, Avropa, Amerika, Rusiya isə Ermənistanı atəşkəs rejimini pozduğuna, mülkilərə, uşaqlara atəş açdığına görə ittiham etmədi. Əvəzində həm onları, həm bizi atəşkəsə əməl etməyə çağırdı. Bu sübutdur ki, Ermənistanı himayə edirlər və arxasında Rusiya dayanıb. Rusiya postsovet məkanında mövqeyini dəyişmək istəmir. Mən belə hesab edirəm ki, Soçidə keçiriləcək görüşdə bütün kartlar açılacaq".

**Torpaqlarımızın azad edilməsi üçün ciddi bir mərhələ başlandığını söyləyən deputat Soçidəki görüşdə Moskvanın mətbəxində hazırlanmış reseptlər təklif olunacağını düşünür. F.Ağamalı sülh danışıqları üçün yeni yol xəritəsi hazırlanacağını da istisna etmir.**

**Müsahibimiz bununla belə, Kremlin Azərbaycanla güc dilində danışmaqda maraqlı olmadığını da iddia edir:** "Çünki Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq olunur, Moskva isə getdikcə gərginləşən vəziyyəti daha da pisləşdirmək istəmir. Ukraynadan sonra Cənub Qafqazda ikinci cəbhə açmaq istəsə güclü təzyiqlərə məruz qalacaq".

**Politoloq Vəfa Quluzadə prezidentin Ağdam səfərini və orada çıxışlarını ermənilərə bir xəbərdarlıq kimi qiymətləndirir. Siyasi analitikin sözlərinə görə, prezident Soçi görüşündən sonra Ermənistana məğlub olacaqlarını demək istəyib:** "Soçi görüşündən qabaq Ermənistana deyildi ki, Moskva ilə birlikdə olsanız məğlub olacaqsınız. Eyni zamanda prezident Rusiyaya xəbərdarlıq etdi ki, bizi qorxutmayın, Avrasiya İttifaqına görə təzyiq göstərməyin. Cəbhə xəttində olanlar o demək idi ki, Rusiya daha güclü təzyiqlər edə bilər. Soçidəki görüşdə təkbətək danışıqlar olacaq, sonra bir yerdə görüşəcəklər. Kreml Ermənistan prezidentinə deyir ki, özünü elə apar Azərbaycan Avrasiya İttifaqına qoşulmağa razı olsun. Mən bu dediklərimi diplomatik dildə açıqlayacam".

**V.Quluzadə Azərbaycanın Avrasiya İttifaqına qoşulmayacağına inanır:** "Qoşulmasaq cəbhə xəttində vəziyyət yenidən gərginləşə bilər". Politoloq Soçi görüşündən ciddi bir nəticə də gözləmir.

**Emil SALAMOĞLU**



# Rəşadət Axundov - bu adı yadda saxlayın

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən NİDA Vətəndaş Hərəkatının liderlərindən biri Rəşadət Axundovun doğum günü idi. Rəşadət bəyin 30 yaşı tamam olur. Bu münasibətlə onu qutlayıram, arzu edirəm Rəşadət bəyin doğum gününü uca millətimiz təntənə ilə qeyd eləsin, çünki bəyin yaşı az olsa da indiyə qədər ortaya qoyduğu potensialla millətin önündə getməyə layiqliyini isbat eləmişdir. Ümid edirəm türmə rəisi Mədət müəllim qəzetin bu nömrəsini də çırpışdırmayacaqdır və Rəşadət bəy təbrikimizi oxuya biləcəkdir. Fürsət ikən Rəşadət bəy haqda bəzi tərifli fikirlərimizi də yazaq, xəsislik yeri deyil. Doğum günü də bir bəhanə olsun.**

Azərbaycan ədəbi-ictimai fikrində bir "Axundov dönəmi" olmuşdur. Bu maarifçilik, aydınlıq çalışmaları 150 ildən çoxdur davam edir, şübhə eləmirəm ki, bir gün bizi də harasa işıqlı yerlərə aparacaqdır. İndi şişirtmədən deyə bilərəm ki, Rəşadət Axundovun simasında Azərbaycan üçün bir sosial-siyasi intibahın da bünövrəsi qoyula bilər. Bizim "2-ci Axundova" böyük ehtiyacımız vardır. İstərdim Rəşadət bəy həyat və fəaliyyətində bunu nəzərə alsın, cəmiyyətimiz üçün oynadığı rolu və yeri heç vaxt zəif qiymətləndirmək fikrinə düşməsin. Ortada bir etimad var, istədin-istəmədin bəzən millət o etimadı sənin boynuna qoyur. Rəsulzadənin boynuna qoyduğu kimi. Davam eləmək, bu "xaçı daşımaq" borcundur.

Açığı, mənim Rəşadət Axundov haqda düşüncələrim bir-iki günün məhsulu deyil, çoxdandır mən onu müşahidə eləyirəm, hərəkətlərinə, davranışlarına baxıb qürur duyuram. Keçən ay NİDA-çıların apelyasiya məhkəməsində bəylə ayaqüstü qısa söhbətimiz də oldu. Üzümə vurmadı, ancaq hiss elədim ki, zindanda əfv ərizəsi yazan dustaqlara yumşaq münasibət bəsləmək çağırışlarıma (mən yazmışdım onlar əsirdir, düşmən əlindədir, başa düşməliyik və sairə) pis baxır. Dedi ki, onları qəti bağışlamaq olmaz, əksinə, qınamalıyıq, yoxsa başqaları da şirniklənir. Ümumiyyətlə, mən onun zindandan bizə verdiyi ürək-dirəyə, səsindəki inama, qətiyyətə və apardığı mübarizənin nəticəsinə arxayınçılığa növbəti dəfə heyran oldum.

Azərbaycan xalqı belə oğullarını tanımalıdır, tanıyacaq da. Zindanda qaldığı 1 il yarım ərzində Axundovun bayırdakı NİDA-çılar haqda hər hansı giley-güzarını eşitmədik. O cümlədən, cəmiyyət və müxalifət haqda da "gəlin qazamatı dəlin, bizi burdan çıxardın, sizdən ötrü tutulmuşuq, niyə susursunuz" və sairə tipində tənqidləri eşidilmədi. Əvvəlki tövrünü dəyişib zindan şeirləri də yazmadı. Halbuki biz müxalif fikirli insanlar qazamata düşərkən bu cür reaksiyalarına adət eləmişik. Halbuki, giley-güzar üçün Axundovun "en" sayda arqumentləri var idi. O saymayıb, biz sayaq. Bilməyənlər də bilsin.

2013-cü il martın 30-da Rəşadət Axundovu yapistlər həbs ediblər. Bundan 12 gün sonra onun oğlu, ilk övladı Araz doğulub. Gənc bir ata üçün körpə övladını doyunca qoxulaya bilməmək nə deməkdir, onun ilk kəlmələrinə həsrət qalmaq, ilk addımlarını görə bilməmək nədir, bunu yazmaq çətindir. Yalnız onu arzu edərdim ki, Azərbaycanda insanları qanunsuz dustaq edən rejim nümayəndələrinin indən belə yüz nəslinin başına eyni hal gəlsin. Bu, qarğış deyil, bir istəkdir, məramdır, demokratik dövlətçiliyimizin prinsipidir, əbədidir, daimidir, dönməzdir! Qayıdaq bəyimizin yanına, bunlar cəhənnəm olsunlar.

Keçən il sentyabrın 14-də yapistlər Axundova növbəti saxta ittihamları irəli sürəndə ictimai sektor pis bir xəbərdən sarsıldı: onun sevimli babası, uzun illər məktəb direktoru işləmiş Ənayət Axundov bu saxtakarlığa dözməyərək damarlarını kəsərək intihar eləmişdi. Bundan düz 2 ay sonra - noyabrın 14-də Axundovun nənəsi də öldü. Deyirdilər ki, Axundov uşaq vaxtı babasının himayəsində yaşayıb, onun təlim-tərbiyəsini görüb. Rejim kənardan çoxsaylı müraciətlərə baxmayaraq Axundovun dəfn mərasimlərində iştirakına icazə vermədi. *(Burada "kənardan" sözünü ona görə yazıram ki, Axundov hər hansı bir şəxsi probleminə, arzusuna, istəyinə görə yapistlərə müraciət yazması qeydə alınmamışdır, ümidvaram belə də davam edəcəkdir).*

Dünyada azadlıq, dinc mübarizə simvolu olan insanlar var. Martin Lüter Kinq, Mahatma Qandi, Nelson Mandela... Bunlar şəkillərdə adətən üzügülər düşüblər. Bizim Rəşadət Axundovun da çox fotolarında üzü gülür. Bu, böyük mesajdır.



# Əli Həsənov Aİ rəsmilərinin bəyanatına cavab verdi

## "Avropa İttifaqının yüksək vəzifəli nümayəndələrinə məsləhət görərdik ki, Azərbaycana qarşı ikili standartlar siyasətinə son qoysunlar"

**Xəbər verdiyimiz kimi, Avropa İttifaqının xarici siyasət üzrə komissarı Ketrin Eşon və Genişlənmə üzrə komissar Ştefan Füle avqustun 6-da Azərbaycanda vətəndaş cəmiyyətinin təqibini pisləyən növbəti bəyanat yayıb.**

**Avropa komissarlarının mətbuat xidmətlərinin yaydığı bəyanatda deyilir:** "Biz narahatlıqla Azərbaycanda növbəti məşhur hüquq müdafiəçisi Rəsul Cəfərovun həbs edildiyini qeyd edirik. O, bu il fevralın 12-də qanuna edilmiş düzəlişlər əsasında məsuliyyətə cəlb edilib. Biz bu düzəlişlərlə bağlı narahatlığımızı bildirmişdik. Leyla Yunusun və onun həyat yoldaşı Arif Yunusun həbsindən dərhal sonra Cəfərovun həbsi hakimiyyətin Azərbaycanda vətəndaş cəmiyyətinin fəaliyyət sahəsini şüurlu və metodik şəkildə daraltdığı barədə təəssüratı gücləndirir".

"Biz həmçinin Dağlıq Qarabağ ətrafında vəziyyətin gərginləşməsindən narahatıq və hesab edirik ki, vətəndaş cəmiyyəti münaqişələr zamanı vətəndaşların əsas hüquqlarının müdafiəsində mühüm rol oynayır.

Biz Azərbaycan hakimiyyətini ölkənin üzvü olduğu Avropa Şurasının standartlarına riayət etməyə çağırırıq. Həmçinin hakimiyyəti vətəndaş cəmiyyətinə qarşı siyasətə yenidən baxmağa çağırırıq" deyə, bəyanatda qeyd edilir.




**Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bəyanatda səslənən ittihamlara cavab verib. Ə.Həsənov "AzərTAc"a müsahibəsində bildirib ki, Azərbaycan sürətlə inkişaf edən, yüksək beynəlxalq nüfuza malik, bütün əsas fundamental insan haqlarının, demokratik azadlıqların təmin olunduğu hüquqi dövlətdir:** "Beynəlxalq aləmə uğurla inteqrasiya edən Azərbaycanın qanunvericiliyi daim demokratik standartlara uyğunlaşdırılır və tətbiq olunur. Avropa İttifaqına və Avropa Şurasına üzv dövlətlərdə olduğu kimi, Azərbaycanda da hər bir şəxs, o cümlədən qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri ölkə qanunlarına hörmətlə yanaşmağa, onun tələblərinə riayət etməyə borcludurlar. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə komissarı Ketrin Eşton və qurumun genişlənmə üzrə komissarı Ştefan Fülenin məlum bəyanatında "məşhur" elan edilmiş, habelə müxtəlif xarici təşkilatların açıqlamalarında adları keçən, amma ölkəmizdə geniş ictimaiyyətə tanış olmayan şəxslər konkret cinayət əməllərində şübhəli bilinərək aidiyyəti orqanlar tərəfindən həbs olunmuş və onların müəyyən müddətə saxlanılması barədə məhkəmələr tərəfindən müvafiq qərarlar verilib. Yalnız istintaq və məhkəmə araşdırması onların günahkar olub-olmadığına aydınlıq gətirə bilər. Buna görə də hesab edirəm ki, həmin dairələrin bəzi maraqlı yerli antimilli qrupların "operativ" donoslarına əsaslanan tələsik, növbətçi bəyanatları subyektiv mülahizələrdən ibarətdir, qərəzli və qeyri-obyektiv xarakter daşıyır, habelə istintaqa və məhkəmələrə təzyiq məqsədi güdür. Avropa İttifaqının yüksək vəzifəli nümayəndələrinə, "Amnesty İnternational", "Human Rights Watch" və digər bu kimi təşkilatlara məsləhət görərdik ki, Azərbaycana qarşı selektiv, tendensiyalı münasibətə, ikili standartlar siyasətinə son qoysunlar".

**Ə.Həsənov deyib ki, Azərbaycan ictimaiyyəti nüfuzlu beynəlxalq qurumlardan, insan haqları sahəsində fəaliyyət göstərən xarici təşkilatlardan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı əməli yardım gözləyir:** "Bir neçə gün öncə işğalçı Ermənistanın kəşfiyyat-təxribat qruplarının total basqını nəticəsində Ermənistan-Azərbaycan dövlət sərhədinin və qoşunların təmas xəttinin müxtəlif istiqamətlərində atəşkəs rejimi pozulmuş, çoxlu sayda hərbçi və dinc insan həlak olmuş, genişmiqyaslı hərbi əməliyyatların bərpa olunması təhlükəsi yaranmışdır. Bu gün vətəndaşlarımız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinə - öz torpaqlarına sərbəst gedə bilmir və yaxud ermənilər tərəfindən girov götürülərək işgəncəyə məruz qalır, qəddarcasına öldürülürlər. Sərhəddə və cəbhə xəttində sakinlər daim atəşə tutulur, çox təhlükəli şəraitdə yaşamağa məhkumdurlar. Son günlərdə əsgərlərlə yanaşı, məktəb yaşlı iki uşaq da erməni snayperləri tərəfindən açılan atəş nəticəsində yaralanıb. Təəssüf ki, Azərbaycanda ən müxtəlif məsələlərlə bağlı ardıcıl və bir qayda olaraq qərəzli bəyanatlar səsləndirən Avropa rəsmiləri, bəzi xarici hüquq-müdafiə təşkilatları bu reallıqları nəinki görmək istəmir, bir milyondan artıq azərbaycanlının elementar insan haqlarının neçə illərdir ki, kobudcasına tapdanması faktını da qulaqardına vururlar.

Onu da qeyd etmək istərdim ki, bu gün ATƏT məkanında, hətta Avropanın aparıcı ölkələrində də insan hüquq və azadlıqlarının kobud şəkildə məhdudlaşdırılması ilə bağlı çoxsaylı faktlar mövcuddur. Görünür, adıçəkilən qurumların rəsmilərinə bu həqiqətlər barədə danışmaq, onları etiraf etmək sadəcə sərf etmir.

Bir daha qeyd edirəm ki, Azərbaycan müstəqil dövlətdir, öz daxili işlərinə hər hansı kənar müdaxiləni qəbul etmir və bundan sonra da etməyəcəkdir".

# Amerikalılar Obamanı sevmir...

## ...Ruslar isə Putinə pərəstiş edir



**"The Time" jurnalı "Moscow Times"a istinadən maraqlı müqayisə aparıb. Jurnal bildirir ki, Qərblə qarşıdurmaya gedən və Ukraynada sərt müqavimətlə üzləşən Rusiya prezidenti Vladimir Putinin xalq arasındakı reytinqi 87 faizə yüksəlib. Halbuki may ayında bu göstərici 83 faiz olmuşdu. Bu isə onu deməyə əsas verir ki, Qərbin tətbiq etdiyi sanksiyalara baxmayaraq rus xalqı Putini əvvəlkindən daha çox sevir.**

"The Time" bildirir ki, eyni sözləri Amerika prezidenti Barak Obama haqqında söyləmək çətindir. Belə ki, o, son vaxtlar amerikalılar arasında populyarlığını kəskin şəkildə itirib. Hazırda xalq arasında onun reytinqi cəmi 40 faizə bərabərdir. Bu, Obamanın prezidentliyi dönəmində ən aşağı göstərici hesab olunur.

❑ **Elbəyi HƏSƏNLİ (Sürix)**

# Ərdoğan, yoxsa İhsanoğlu?

**Türkiyədə ilk prezident seçkilərinin keçirilməsinə sayılı günlər qalıb. 10 avqustda baş tutacaq seçkilərin nəticələri təkcə Türkiyə üçün deyil, ümumilikdə Yaxın Şərq ölkələri, o cümlədən Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir.**



Seçkilərdə hakim AKP-dən baş nazir Rəcəb Tayyib Ərdoğanın namizədliyi irəli sürülüb.

Müxalifətin vahid namizədi isə İslam Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Ekmeleddin İhsanoğludur.

Qeyd edək ki, bu iki namizəddən heç biri birinci mərhələdə səslərin 51 faizini toplaya bilməsə, seçkinin ikinci turu avqustun 24-də baş tutacaq.

Hazırda davam edən seçki prosesi hazırkı baş nazirin prezident kürsüsünə daha yaxın olduğunu göstərir.

Ərdoğanın seçilmək şansı nə qədər çox olsa da, bəzi çıxışları onu sosial şəbəkələrdə tənqid hədəfinə çevirib.

Prezidentliyə namizədin sünni-şiə ayrı-seçkiliyi edərək özünün sünni olduğunu bəyan etməsi və bundan əlavə, özünün erməni kimi qələmə verilməsini çirkinlik adlandırması milli və dini zəmində mübahisələrə yol açıb.

Müxalifətin vahid namizədi Ekmeleddin İhsanoğlunun çıxışları isə siyasətçidən daha çox alim və diplomatı xatırladır. Son günlər mətbuatda onun "mason" olması haqqında şayiələr dolaşsa da, İhsanoğlu bu iddiaları əsassız adlandırıb və heç bir siyasi qüvvənin üzvü olmadığını bildirb. İhsanoğlunun "İstiqlal marşı"nın bir cümləsini yanlış istifadə etməsi də rəqiblərinin əlində silaha çevrilib.

Onun siyasiləşməmiş kimliyinin seçicilər tərəfindən prezidentliyə namizəd kimi necə qiymətləndiriləcəyi bəlli deyil. Bundan əlavə, əksər təbliğat vasitələrinin, xüsusən də medianın hakim partiyanın əlində cəmləşməsi də cəmiyyətdə siyasi lider kimi tanınmayan bir şəxsin prezidentliyə namizəd olaraq uğur qazanmasına əngəl yaradan amillərdəndir.

Türkiyənin seçki gündəmini yaxından izləyən siyasətçilər, millət vəkilləri də bu seçkilərdə Ərdoğanın şansının yüksək olduğunu bildirirlər.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, millət vəkili Sabir Rüstəmxanlı bildirib ki, normal seçki prosesi keçirilsə, müxalifətin namizədi Ekmeleddin İhsanoğlunun şansı Ərdoğandan yüksəkdir:** "Kimin qalib gələcəyini demək çətindir. Çünki Ərdoğanın əlində bütün imkanlar var, həm dövlətin imkanları, həm partiyanın imkanları onun istifadəsindədir. Türkiyədəki televiziyaların demək olar ki, hamısı bu gün hakim partiyaya bağlıdır. Təbliğat kampaniyası Ərdoğanın xeyrinə işləyir".



**Sabir Rüstəmxanlı:**
"Ədalətli seçki keçirilsə, müxalifətin namizədinin şansı daha yüksəkdir"



**Fazil Mustafa:**
"Çox güman ki, Ərdoğan qalib gələcək"

**Millət vəkili qeyd edib ki, bütün bunlar heç də xalqın Ərdoğanın tərəfində olması demək deyil:** "Eyni zamanda bununla bağlı çox böyük narazılıq da var, müxalifət partiyaları arasında. Əhalinin böyük bir hissəsi AKP-nin siyasətini qəbul etmir və onun başında dayanan adamlardan kiminsə ölkə başçısı olmasını da istəmirlər. Ancaq Türkiyə kimi çətin siyasi münasibətlər sisteminə malik ölkədə bunu reallaşdırmaq nə dərəcədə mümkündür, bu narazılıq seçki qutularına təsir göstərəcəkmi, bunu demək çətindir".

**Seçkilərin nəticəsinin Azərbaycan-Türkiyə münasibətlərinə təsirinə gəlincə, millət vəkili bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri ölkə başçısının kimliyi ilə müəyyənləşmir:** "Bu, dövlətlərin tarixi ənənələri ilə, millətlərin qardaşlığı ilə, bir millət olmanın bizim boynumuza qoyduğu məsuliyyətlə bağlıdır. Prezidentin biri gedər, başqası gələr. Ancaq dövlətlərarası münasibətlər dəyişməz".

**Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa seçki prosesinin nəyisə dəyişə biləcəyi qənaətində deyil:** "Heç bir halda ölkənin gələcəyi ilə bağlı radikal dəyişiklik gözləmirəm, bu proses cəmiyyətin faydasına, inkişafına yönəlmiş bir ssenari deyil. Çünki Türkiyə cəmiyyətinin əsas dəyəri parlamentar sistem idi, bu sistemin başqanlıq sisteminə çevrilməsi, müəyyən dərəcədə cəmiyyətdə avtoritarizm üçün çox ciddi zəmin yarada bilər. Çünki başqanlıq sisteminə keçid, başqanlığı tənzimləyən vasitələr müəyyən olunandan sonra daha effektli olar. Türkiyədə hələ ki belə bir mexanizm yoxdur. Bu addım avtoritar meyllərin daha da güclənməsinə və bu günə qədər qazandığı demokratik dəyərlərin itirilməsinə gətirib çıxara bilər".

**Millət vəkili seçki prosesinin gedişinə əsasən, hazırkı baş nazir Rəcəb Tayyib Ərdoğanın daha şanslı namizəd olduğunu bildirib:** "Çox güman ki, indiki baş nazir Rəcəb Tayyib Ərdoğan qalib gələcək. Ancaq bunun Türkiyənin problemlərinin həlli məsələsində faydalı olacağını düşünmürəm. Çünki bu, Türkiyədə uzlaşmanı yox, qarşılaşmanı, qütbləşməni daha da dərinləşdirəcək. Seçki kampaniyasının gedişi də, ümumi yanaşmalar da bunu göstərir. Türkiyə kimi bir ölkədə demokratik dəyərlərdən uzaqlaşma baş verdiyi müşahidə olunur".

**F.Mustafanın sözlərinə görə, Ekmeleddin İhsanoğlu cəmiyyətdə o qədər də siyasiləşməmiş bir namizəd olduğuna görə onun çox dəstək ala biləcəyini düşünmür:** "Türkiyə cəmiyyəti çox siyasiləşmiş bir cəmiyyətdir. İhsanoğlunun siyasi partiyalar tərəfindən dəstəklənməsi hələ o demək deyil ki, o, cəmiyyətdən də dəstək görəcək. Burada həm də hakimiyyət resursları rol oynayır. Seçki prosesinə çox böyük təsir gücünə malik olan bələdiyyə sisteminin böyük əksəriyyəti də Ərdoğanın əlində olduğuna görə onun seçilmə şansı daha böyükdür".

**Millət vəkili onu da vurğulayıb ki, Türkiyədə siyasi uzlaşma baş tutmasa, daxili münaqişələr qaçılmaz olacaq:** "Bütün hallarda Türkiyənin bir uzlaşma modelinə getməsi daha məqsədəuyğun olardı ki, Türkiyə daxili təlatümlər yaşamasın. Çünki bu, Türkiyənin xarici siyasətinə mənfi təsir göstərəcək və Azərbaycan üçün də arzu olunan hal deyil".

F.Mustafa bildirib ki, kimin seçilməsindən asılı olmayaraq Türkiyə-Azərbaycan münasibətlərində heç bir dəyişiklik olmayacaq.

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan-İran münasibətlərində "buzlar əriyir"

## İki ölkə arasında bir sıra razılaşma əldə edilib

**Azərbaycan və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 9-cu iclası çərçivəsində iki ölkə arasında bir sıra razılaşma əldə edilib.**

"APA-Economics"in məlumatına görə, bu barədə dünən Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlət komissiyasının həmsədri, Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib.

Ş.Mustafayev qeyd edib ki, Azərbaycan və İran arasında ticarət dövriyyəsinin artırılması məqsədilə ixrac qabiliyyətli mallar haqqında mütəmadi məlumat mübadiləsinin aparılması barədə razılığa gəlinib.

İran Ticarət Palatası və Azərbaycanın Sahibkarlar Konfederasiyası bu sahədə birgə fəaliyyət göstərəcək.

Azərbaycanla İran nəqliyyat sahəsində də iki razılaşma əldə edib.

"APA-Economics"in məlumatına görə, avqustun 7-də keçirilən Azərbaycan-İran biznes forumunda Dövlət Komissiyasının həmsədri, Azərbaycan iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsi olan "Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar işlərin sürətləndirilməsi barədə qərar qəbul olunub.

"Dəmir yolu sahəsində artıq bir sıra işlər görülüb. Qəzvin-Rəşt dəmir yolunun 80% işlər İran tərəfindən görülüb, 20%-də işlər sürətləndiriləcək. Artıq bu dəmir yolunun tikintisi üçün Azərbaycan-İran-Rusiya üçtərəfli konsorsium yaradılıb. Azərbaycan tərəfinin payına düşən hissəsi Azərbaycan hökuməti tərəfindən həyata keçiriləcək", - deyə Ş. Mustafayev bildirib.

**Nazir həmçinin qeyd edib ki, Şimal-Cənub avtomobil magistralları da mühüm əhəmiyyət kəsb edir:** "Bakıdan Rusiya sərhədinə qədər yüksək səviyyəli magistralın 90% işləri həyata keçirilib. Bakıdan Astaraya qədər olan yolun inşası üçün bütün maliyyə mənbələri müəyyən edilib və bu, Şimal-Cənub dəhlizinin genişlənməsinə böyük tranzit potensialının yaranmasına imkan yaradacaq. Rusiyadan Azərbaycan vasitəsilə İran və körfəzə və əksinə yüklərin daşınmasına imkan yaradacaq".

# Ərdoğan Çankayanın bir addımlığında



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**İki gün qaldı. Finişdə möcüzə baş verməsə, rəqibləri Rəcəb Ərdoğana seçki ərəfəsi "qara piar" xarakterli böyük sürprizlər etməsə, Türkiyə 10 avqustda olmasa da, 24 avqustda AKP lideri ilə yola davam edəcək. İlkin rəy sorğuları, mütəxəssis təxminləri hələlik bunu deyir.**

Əlbəttə, könül istərdi ki, Türkiyə heç olmasa 5 il Ərdoğandan istirahət eləsin. Saakaşvili kimi. Nədən ki, toplumun mühüm bir kəsimi, beynəlxalq demokratik ictimaiyyət 12 ilin yorucu "telediktoru"nun dəyişməsini arzulayır. Nə qədər güclü, xarizmatik siyasətçi, natiq olsa belə, Ərdoğandan yorğunçuluq Azərbaycanda da özünü göstərməkdədir.

Demokratiya hər halda, rəngarənglikdir. Uzun illərin hakimiyyəti adamı korlayır, avtoritarizmə meylləndirir, getdikcə tənqidə daha dözümsüz edir, özünəvurğunluğu gücləndirir. Ona görə yazmışdıq ki, yavaş-yavaş avtoritar rəhbərə oxşayan Ərdoğana siyasətdə "ağ qoşa" qoymaq məsləhətdir ki, sonra böyük siyasətə "şeş qoşa" ilə qayıda bilsin.

Hərgah, bir sıra qüsurlarına rəğmən, ona diktator, avtoritar damğası basmaq da insafdan olmazdı. Diktatorlar, avtoritarlar "Seçilməsəm, siyasətdən gedəcəyəm!" deməz. O isə dəfələrlə bunu dilə gətirib. Məsələ də ondadır antidemokratik liderlər belə şeyi ağla da gətirmir, özlərini əvəzolunmaz sayırlar, yeri gələndə ömürlük prezidentlik üçün yüz oyundan çıxırlar.

Ancaq yenə könül arzulardı ki, Türkiyənin sükanı arxasına yeni sima keçsin. Zira, 12 ildir bu sükandan yapışan indiki baş nazirin zəifliklərini Qərb yaxşı bilir və risk var ki, onların vasitəsilə qardaş ölkənin həssas yerlərinə təzyiq edib Ankaradan güzəştlər qoparsınlar. Təzə legitim prezident isə həmişə təzədir və bir qayda olaraq ona dünyada daha diqqətli, daha anlaşıqlı və daha hörmətli münasibət olur.

Ərdoğandan ötrü prezident postu şübhəsiz, ən əvvəl bir prinsip, qürur məsələsidir. Siyasi rəqiblər, ələlxüsus son vaxtlar mövqeyinin zəiflədiyi Qərb qarşısında müəyyən özünütəsdiq məsələsidir. İkinci yandan, səlahiyyətləri əvvəlki prezidentdən köklü şəkildə fərqlənəcək yeni prezident kreslosuna o, başladığı iqtisadi-siyasi islahatları yekunlaşdırmaq fürsəti, 12 illik siyasi mübarizə siklinin uğurlu bir akkordu kimi baxır. Yoxsa elə baş nazirliklə də yetərlənərdi.

O sırada AKP liderinin Cümhuriyyətin 100 illiyinədək qardaş ölkəni dünyanın iqtisadi cəhətdən 10 ən inkişaf eləmiş ölkəsindən ("G-10") birinə çevirmək istəyi də yaddan çıxarılmamalıdır. Hərçənd son illər Türkiyənin iqtisadi göstəricilərində irəliləmə bir elə nəzərə çarpmır.

Bütün variantlarda sadalananlar Ərdoğan üçün həyati vacib hədəflərdir və prezident olarsa, böyük ehtimalla onlara çatmağa çalışacaq. Lakin bundan ötrü onun daxili siyasətdə milli barış yönündə əlavə addımlar atması qaçılmaz olacaq. Nədən ki, xalqın ən müxtəlif təbəqələrinin dəstəkləməditi, müsbət nəticələrini öz üzərində hiss eləmədiyi reformalara can yandırması istisnadır.

Azərbaycana gəlincə, Ərdoğan komandası əlbəttə ki, bizim üçün "bağlı boğça" deyil. Bu komandanın oyun qaydaları, Azərbaycana və onun dərdlərinə münasibəti daşlaşmış vəziyyətdədir, proqnoza yatımlıdır. Üstəgəl, Azərbaycan iqtidarı ilə o, bir çox məsələlərdə *(Türkiyəyə yatırılan böyük paralar və s.)* anlaşma və iş birliyindədir və o üzdən Bakını bu komanda tam qane edir. Daha bir səbəbdən: Ərdoğanı Azərbaycanda demokratiya və insan haqlarının durumu ilgiləndirmir.

Cəmiyyətimizi düşündürən yeganə mövzu isə Türkiyə baş nazirinin Qarabağ və Ermənistanla sərhəd probleminə yanaşması ilə bağlıdır. Söhbət saxta erməni soyqırımının bədnam 100 illiyindən dolayı rəsmi Ankaranın yürüdəcəyi siyasətdən gedir. Görəsən, "bir millət-iki dövlət" strategiyasından doğan ənənəvi kurs yerində qalacaq, yoxsa çoxdandır Vaşinqtonun masası üstündə olan və Güney Qafqaza yönəlik 2015 "Yol xəritəsi" bu dəfə artıq prezident Ərdoğanın vasitəsilə həyata vəsiqə qazanacaq?

Türkiyədə 10 avqust seçkilərinin doğurduğu əsas sual əslində budur - cavabı Azərbaycanın da, Türkiyənin də taleyini dəyişə biləcək bir sual...



# Repressiyaları unutduran müharibə ritorikası

Azər RƏŞİDOĞLU

**Qarabağ naminə bütün problemləri unuda bilərik. Öncə Qarabağdır. Öncə vətəndir. Vətənin hər hansı bir ərazisinin işğaldan azad edilməsi üçün 15 nəfər deyil, 15 min şəhid verməyə də hazır olmalıyıq. Torpaq qanla sulananda vətənə çevrilir. Lakin bütün məsələlərdə olduğu kimi, Qarabağ uğrunda savaşa da emosiyasız, zəka ilə yanaşmağa məhkumuq.**

Vətənpərvərlik hissləri manipulyasiya predmetinə çevriləndə fəsadları ağır olur. İstənilən döyüşün, hərbi əməliyyatın uğurlu olub olmadığını təhlil etməyin zamanı gəlir. Müharibələr bir qayda olaraq, siyasətə xidmət edir. Bəzən böyük siyasətə, bəzən isə kiçik intriqalara xidmət edən hərbi əməliyyatların təhlili də vacibdir.

Hər bir Azərbaycan əsgəri qiymətlidir. Cəbhədən gələn məlumatları bir idman xəbəri kimi yaymaq və yaxud izləmək mümkün deyil. 15 əsgərin ölümü sözə və yazıya gələ bilməyəcək dərəcədə dəhşətlidir.

15 ailənin ümidlərinin sönməsi heç də yaxşı əlamət deyil. Düzdür, bu torpaq şəhid qanı ilə suvarılmalıdır. Lakin şəhid qanı boşu-boşuna axıdıla da bilməz. Odur ki, hamını belə bir sual düşündürür - son günlər sərhəddə baş verənlərin, siyasi hakimiyyətin hərbi ritorikasının arxasında nə durur? Əsgərlərimiz yarıda dayanacaqmı, yoxsa torpaqlarımızın azad olunması istiqamətində hərbi əməliyyatlar davam etdiriləcək? Baş verənlərin və axıdılan şəhid qanları sayəsində hansı ərazimizi işğaldan azad edəcəyik? Əlbəttə ki, hər qarış vətən torpağı üçün şəhid qanı axıtmağa dəyər. Lakin hərbi əməliyyatların uğurlu olmasını o zaman deyə bilərik ki, heç olmasa siyasi hakimiyyətin oxuduğu "hərbi marş"da dediyi kimi Ağdam düşməndən azad olunsun. Yoxsa nə 15 ailənin, nə də ki başqa millətlərin gözünün içinə baxa bilməyəcəyik.

Son hərbi əməliyyatlara sadə vətəndaşlar tərəfindən verilən reaksiyalar onu sübuta yetirdi ki, xalq azadlıq savaşı istəyir, torpaqlarını qanı bahasına azad etmək istəyir, lakin yenə də çoxları bütün bunların hansısa siyasi oyunların tərkib hissəsi ola biləcəyindən ehtiyat edir.

Azərbaycana qələbə lazımdır. Bir postun alınması deyil, Ağdamın, Şuşanın, Xocalının və digər ərazilərin azad olunması lazımdır. Yalnız bu şəkildə xalq öz gücünə və qələbəyə inana bilər. Əgər axıdılan şəhid qanlarına buna səbəb olmayacaqsa, hərbi əməliyyatlara görə cavabdeh olanlar, o cümlədən yeni müdafiə naziri Zakir Həsənovun ilk döyüşü uğursuz hesab ediləcək.

Nə Rusiyanın vasitəçilik missiyası naminə, nə siyasi rəqiblərin sıradan çıxardılması, nə də ki gündəmi dəyişmək naminə nəinki 15 əsgərimizi, heç onların bir telini də itirməyə dəyməzdi.

Bütün nəzərlər Ermənistanla sərhədə yönəldiyi bir zamanda Azərbaycanın daxili siyasətində də maraqlı proseslər baş verdi. Tanınmış hüquq müdafiəçiləri - Leyla Yunus, Arif Yunus, Rəsul Cəfərov həbs edildi. İctimai rəyin vətənpərvərlik mövzusuna yönəldildiyi bir zamanda adıçəkilən həbsləri tənqid edən beynəlxalq təşkilatların rəyi eşidilməz oldu. İctimai rəydə isə yalnız Qarabağla bağlı mövzular prioritet təşkil etdiyindən gurultulu həbslər də sanki unuduldu. Vətənpərvərlik marşları repressiyaları unutdura bildi. Baş verənlər politoloq Ərəstun Oruclunun sosial şəbəkədə paylaşdığı statusda tam çılpaqlığı ilə açıqlanırdı: "Vətənpərvərlik, millətçilik incə hisslərdir, buna görə də onları elə cilovlaya bilmək lazımdır ki, alçaqların ayaqları altında futbol topuna çevrilməsin".

Savaş perspektivinə gəldikdə isə bir daha vurğulamaq yerinə düşərdi ki, gələn il Azərbaycanda Avropa Oyunlarının keçirilməsi nəzərdə tutulur. Azərbaycan hakimiyyəti bu beynəlxalq tədbirə zərər vura biləcək istənilən şəxsi sıradan çıxaracağını nümayiş etdirir. Leyla Yunus və Rəsul Cəfərovun həbsində digər amillərlə yanaşı bu tədbiri boykot çağırışları da mühüm rol oynadı. Hər iki hüquq müdafiəçisi Avropa Oyunlarını boykot hərəkatı yaratmağa səsləyirdi.

Hakimiyyətdaxili siyasətdəki problemləri unutdurmaq üçün də Avropa Oyunlarına ümid bəsləyir. Xalqa çörək və tamaşa lazımdır. Avropa Oyunları isə güclü tamaşadır.

2012-ci ildə Bakıda keçirilən "Evrovision" zamanı da müxalifət boykota və "Demokratiya naminə oxu" hərəkatına çalışdı. "Eurovision"un İsveçli qalibi Loren Azərbaycan demokratları ilə görüşdü. İndiyənə qədər belə hadisə baş verməmişdi. Nəticə isə gözlənilən uğuru verə bilmədi.

Avropa Oyunlarının Bakıda keçirilməsinə qarşı Ermənistan da çıxış edir. Bu isə Bakını vətənpərvərlik oyunlarını davam etdirməyə sövq edir.

Parlament seçkiləri ilə eyni zamanda keçiriləcək Avropa Oyunlarının baş tutması üçün rəsmi Bakı israrlıdır. Yeni savaşın başlaması isə bu tədbirin iflası demək olardı. Bakı isə bunu arzulamır. Vətənpərvərlik şərqisi söyləyənlər bu barədə də düşünməlidirlər...

# 5 uşaq dənizdə batdı: 3-ü bir ailənin üzvüdür!

## Qafil Məmmədov: "Həmişə uşaqları dənizə özüm gətirirdim, amma həmin gün..."

**Yay fəslinin son ayı iki ailəyə dözülməz faciə gətirib. Bakıda bir gündə 5 uşaq dənizdə batıb. Xəzər Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, dəhşətli hadisə avqustun 6-da Şüvəlan çimərliyində qeydə alınıb.**



Saat 20:00 radələrində Xəzər rayonu Şimal DRESS qəsəbə sakinləri 14 yaşlı Aydan Fərziyeva, qardaşı 13 yaşlı Hüseyn Fərziyev, 10 yaşlı Kəmalə Əliyeva, qardaşları - 9 yaşlı İlgün Əliyev, Fariz Əliyev Şüvəlan çimərliyində dənizdə çimərkən boğulublar. Hadisə yerinə Dərhal Fövqəladə Hallar Nazirliyinin müvafiq xilasetmə qüvvələri cəlb olunub. Nazirliyin dalğıc-xilasedicilər tərəfindən Aydan Fərziyeva, İlgün və Hüseynin meyiti sudan çıxarılıb. Digərlərinin meyitlərinin axtarışı istiqamətində dərhal tədbirlər başlayıb.

Ən dəhşətlisi həm də budur ki, ölən uşaqların 3-ü bir ailənin üzvüdür.

**Dənizdə 3 övladı boğulan dərdli ata Qafil Məmmədov qafqazinfo-ya gecə növbəsində işlədiyini deyib:** "Həmişə uşaqları dənizə özüm gətirirdim. Amma həmin gün uşaqlar özləri dənizə gəliblər. Suya girən kimi dalğa aparıb".

Avqustun 7-də günün ikinci yarısında 10 yaşlı Kəmalə Qafil qızı Əliyevanın meyiti batdığı yerdən 800-900 metr aralıda, qayaların yanında aşkarlanaraq ailə üzvlərinə təhvil verilib.

Onun qardaşı 6 yaşlı Fariz Əliyevin axtarışları davam edirilir.

Aydan, İlgül və Hüseynin meyitləri avqustun 6-da axşam tapılıb və avqustun 7-də dəfn olunub.

Fövqəladə Hallar Nazirliyinin Dövlət Sulardan Xilasetmə Xidmətindən APA-ya bildirilib ki,



məlum hadisəyə valideyn nəzarətsizliyi səbəb olub. Belə ki, həmin uşaqlar dünən axşam saatlarında valideynlərinin nəzarəti olmadan çimərliyə gediblər və nəticədə belə bir faciəli hadisə baş verib.

Dövlət Sulardan Xilasetmə Xidməti vətəndaşlara müraciət edərək onları su hövzələrində diqqətli olmağa, azyaşlı uşaqları nəzarətsiz buraxmamağa, qadağan olunmuş yerlərdə ümumiyyətlə çimməməyə çağırıb.

# "Oliqarx yalnız oyun qaydalarını pozanadək hakimiyyətin himayəsindədir"

## Mehman Əliyev: "Sabah Ziya Məmmədova desələr ki, biznesini təhvil ver, verəcək, çünki özü də bilir ki, ona bu imkan verilib və istənilən an əlindən alına bilər..."

**Xəbər verdiyimiz kimi, Meydan TV nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun biznesi haqda material hazırlayıb. Araşdırmada A. Məmmədovun infrastruktur, tikinti, neft və qaz hasilatı, beynəlxalq ticarət, telekommunikasiyalar və mehmanxana xidmətləri sahəsini əhatə edən biznes imperiyası haqda təfsilatlı məlumatlar yer alıb. "Garant Holdinq"in Direktorlar Şurasının sədri, Azərbaycan-Amerika Alyansının təsisçisi və Azərbaycan Qolf Federasiyasının prezidenti olan A.Məmmədovun sahib olduğu biznes qurumlarının sayı və əhatə dairəsi isə xeyli genişdir.**



Mehman Əliyev

Nazirin gənc oğlunun biznes imperiyasının ucu-bucağı bilinmir. Aydın məsələdir ki, bu şirkətləri, biznes strukturlarını A.Məmmədov uğurlu biznes fəaliyyəti nəticəsində qurmayıb. Bu daha çox "ata payıdır" və hakimiyyətin ən qüdrətli nazirlərindən olan Ziya Məmmədovun sayəsində mümkün olub. Və əslində bu biznesin əsl sahibi də elə nazirin özüdür. Oliqarx-məmurların varlığı Azərbaycan reallığında qeyri-adi hadisə hesab olunmasa da, ortaya çıxan bir sual hələ ki savabsızdır. Əcəba, hakimiyyət məmurların və onların övladlarının bu qədər böyük biznes imperiyası yaratmasına nədən şərait yaradır? Axı bütün hallarda onlar məmurdur və günün birində hansısa formada iqtidar üçün başağrısı yarada bilər.

**"Turan" İnformasiya Agentliyin direktoru Mehman Əliyev hakimiyyət üçün oliqarx-məmurların varlığının bir normaya çevrildiyini düşünür:** "Oliqarx o deməkdir ki, siyasi sistemlə maliyyə kapitalı birləşir və siyasi hakimiyyətdə təmsil olunan şəxs biznesdən gələn gəlirlər vasitəsilə varlanır. Bu gün Azərbaycanda ən yüksək vəzifədən tutmuş nazirlərə qədər, baş prokurora qədər hamısı oliqarxdır. Çünki onlar siyasi hakimiyyətin imkanlarından istifadə edərək öz bizneslərini qurublar. Ölkədə iqtisadi sahələrin, biznesin hamısı inhisardadır və buna görə də hər şey bölünüb, hər kəsin öz sahəsi, tikinti şirkətləri, bankları, şadlıq evləri və sairləri var".

**M.Əliyevin sözlərinə görə, təcrübədə oyun qaydalarını pozan və buna görə cəzalandırılan oliqarx-məmurlar olub. Onun fikrincə, hazırkı sistem məhz bu cür çalışır, oliqarx xəyanət edənədək fəaliyyət göstərir, ondan sonra isə cəzalandırılaraq biznesi əlindən alınır:** "Bu hakimiyyət belə qurulub. İndi bunun nə üçün olduğunu demək olmur. 1993-cü ildən bu qüvvə iqtidara gəlib, ancaq 2004-2005-ci ildən sonra bu proses daha da sürətlənib. Bu müddətdə çox az misal gətirmək olar ki, hansısa oliqarxın əmlakı dağıdılıb, əlindən alınıb. Bu yalnız o zaman olur ki, həmin oliqarx daxili oyun qaydalarını pozur, buna görə də cəzalandırılır, əmlakı əlindən alınır. - Əli İnsanov, Fərhad Əliyev kimi. Bu, müəyyən mənada xüsusi hallarda olur. Normal hallarda isə onlar təmtəraqla təqaüdə yola salınırlar. Gedib öz pullarını xərcləyir. Yalnız 2005-ci ildə bir neçə oliqarx cəzalandırıldı, onda da oyuq qaydalarını pozduqları üçün oldu".

**Bəs oliqarxların bu qədər para qazanması sonradan hakimiyyət üçün problem yaratmayacaq? M.Əliyevin fikrincə, əslində hakimiyyət elə bu şəxslərdən formalaşdığı üçün böyük problemlərin yaranması mümkün deyil, xətdən kənara çıxanlar isə cəzalanır:** "Bu sistem belə qurulub və belə də fəaliyyət göstərir. Müxalifətdə pul yox, müstəqil mediada pul yox, müstəqil QHT-lər yox dərəcəsində - yəni hər şey nəzarətdədir, bütün vəsaitlər isə hakimiyyətin nəzarəti altında idarə olunur. Bizdə ümumiyyətlə bazarın 70 faizi qeyri-rəsmidir, yəni kölgə iqtisadiyyatıdır. Bu da təbii ki, hakimiyyətin nəzarətindədir. Sabah təbii ki, əgər Ziya Məmmədov sistemdaxili oyun qaydalarını pozsa, onu cəzalandıracaqlar. Oyun qaydaları isə ilk növbədə prezidentə sədaqətdir. Başqa hallarda belə cəzalandırılma gözləmirəm. Məsələn, sabah Ziya Məmmədova desələr ki, filan biznesini təhvil ver, onu edəcək. Çünki özü də bilir ki, ona bu imkan verilib və istənilən an əlindən alına bilər".

**Əksər biznes qurumlarının məhz qanunları pozmaqla fəaliyyət göstərdiyini və nəticədə hakimiyyətin nəzarəti altında olduğunu deyən M.Əliyev iqtidarın bu səbəbdən istədiyi an onları cəzalandıra biləcəyini söyləyir:** "Biz, məsələn, "Turan" olaraq vergimizi vaxtlı-vaxtında, qəpiyinə qədər ödəyirik. Son yoxlamalar keçən il Vergilər Nazirliyi tərəfindən aparılıb. Bizi 3 ay yoxlayıblar, 1 qəpik də vergidən yayınma olmayıb. Ancaq mən bilirəm ki, Azərbaycanda bizim kimi təşkilatlar çox nadir tapılar, barmaqla saymaq olar. Hamısı bu oyunun içindədir. Hər kəs məcburdur ki, bu oyun qaydalarına uyğunlaşsın. Az qazanan, çox qazanan hər kəs bu sistem içərisindədir, kölgəli kapitalizmdir. İkili mühasibat, "ağ mühasibat", "qara mühasibat" və sair. Yeni sistem belə qurulub və belə də işləyir. Bu da biznesi nəzarət altında saxlamaq imkanı verir. Bəlkə də çoxları belə yaşamaq istəməz, amma məcburiyyət qarşısındadır. Çünki bilir ki, etiraz edəsə və ya bir söz desə, o dəqiqə onun biznesini əlindən alacaq, özünü isə tutub basacaqlar. Sistem belə qurulub ki, sənə imkan verilir, susursansa, sistemi qəbul edirsənsə, buyur, qazan, yaşa. Etiraz etsən, səni müflis edəcək və həbsə atacaqlar".

❑ KƏNAN

# Moskva-Vaşinqton qarşıdurmasında cəbhə xətti dəyişir

**Yeni Qarabağ müharibəsi ehtimalının artmasına Rusiya tərəfdən ən müxtəlif səviyyələrdə maraqlı mövqelər sərgilənməkdədir. Əgər rəsmi dairələrdə bu, ümumi narahatlığın ifadə edilməsində, sülh danışıqlarının alternativinin olmamasının vurğulanmasında özünü göstərirsə, ekspertlər vəziyyəti daha detallı və əhatəli təhlil edib təxminlər səsləndirməkdədirlər.**




# Qarabağdakı son hadisələrdə "Amerika izi"

## Bəzi analitiklərə görə, postsovet məkanında rəngli inqilablar ssenarisini izləyən ABŞ da lokal müharibədə maraqlı ola bilərdi; fərqli qənaətlər də mövcuddur; Putinə yaxın şəxs: "Amerika və Rusiya bu dəqiqə Ermənistan hayında deyil..."

Formal vasitəçi dövlət kimi Rusiyanın rəsmi mövqeyi xarici işlər naziri Sergey Lavrov tərəfindən artıq ortaya qoyulub. İki gün öncə isə Rusiyanın Ermənistandakı səfiri İvan Volınkin bu ölkənin müdafiə naziri Seyran Ohanyanla görüşüb. Görüşdən sonra qəbul edilən birgə bəyanatda təmas xəttində gərginliyin kəskin artmasından ciddi narahatlıq ifadə olunur. "Tərəflər situasiyanın sabitləşdirilməsinin mümkünlüyünü müzakirə edərək, dinc nizamlanmanın davam etdirilməsinin zəruriliyini bildiriblər. Səfir həlak olan hərbi qulluqçuların ailələrinə başsağlığı verib".

Rusiya hökumətinin Qarabağ problemi ətrafında yaranmış son duruma münasibəti beləcə, bəlli. Zatən, yeni bir şey də yox - ümumi çağırışlar, işğalçı ilə işğala məruz qalan ölkəyə eyni gözlə baxmaqdan qaynaqlanan ənənəvi ədalətsiz və şablon yanaşma *(Söz düşmüşkən, son olaylarla bağlı daha obyektiv açıqlama NATO-dan gəlib. Alyans öz bəyanatından bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini aydın şəkidə ortaya qoyub. Bu, əslində nə vaxtsa öz torpaqlarını hərbi yolla azad eləməyə girişəcək) Bakı üçün Qərbin kart-blanşı ola bilər.*

Rusiyanın ekspert çevrələrinə gəlincə, məsələn, Rusiya Elmlər Akademiyasının Beynəlxalq Münasibətlər və Dünya İqtisadiyyatı İnstitutunun aparıcı elmi əməkdaşı, Qafqazşünaslar Elmi Cəmiyyətinin prezidenti Aleksandr Krılov düşünür ki, istər Qarabağda, istərsə də Ermənistan sərhədi boyunca gərginləşmə təkcə regional yox, həm də qlobal amillərlə bağlıdır. Onun qənaətincə, münasibətlərin kəskinləşməsi bir tərəfdə Rusiya, digər tərəfdə isə ABŞ, NATO, Avropa Birliyi olmaqla iki tərəf arasında gedir.

**Sitat:** "Kritik vəziyyətin yaranmasının səbəbi Ukrayna ilə əlaqədar deyil, ABŞ administrasiyasının mövqeyindədir. Birləşmiş Ştatlar o qənaətə köklənib ki, Rusiyanın İraq, Suriya və başqa məsələlərlə bağlı mövqeyi Amerika üçün məqbul deyil. Onlar hesab edirlər ki, Moskvanın müstəqil siyasətinə onu beynəlxalq arenada təcrid eləməklə, iqtisadi sanksiyalar və Rusiya ilə həmsərhəd regionlarda qarışıqlıq yaratmaqla son qoymaq olar. Ukraynadakı hadisələr, Azərbaycan və Ermənistan arasında gərginliyin artması məhz bu kontekstdə baş verir". Politoloqun fikrincə, Dağlıq Qarabağda hərbi əməliyyatların bərpası o vaxt mümkün olacaq ki, Rusiya Ermənistanın təhlükəsizliyinə zəmanət verə bilməyəcək və bölgədən gedəcək.

"Hərçənd belə bir variantı istisna eləmək olmaz, ancaq daha böyük ehtimal ondan ibarətdir ki, Rusiya dünya oyunçularından biri kimi öz rolunu saxlayacaq və bizim Qərb tərəfdaşlarımız əvvəlkindən daha böyük ölçüdə Kremlin maraqları ilə hesablaşmalı olacaqlar. O zaman gərginlik dövrünü növbəti sakitlik dönəmi əvəzləyəcək. Hadisələrin bu cür inkişafı həm də Qarabağ münaqişəsi zonasında və bütövlükdə Güney Qafqazda situasiyanın sabitləşməsinə kömək edəcək", - deyə rusiyalı ekspert qeyd edib.

***

**Başqa bir politoloq, Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Putinin qəyyum etdiyi (inandığı) şəxs Sergey Markov isə qədər fərqli düşünür:** "Dağlıq Qarabağ ətrafında vəziyyət kəskinləşib, orada artilleriyadan istifadə olunmaqla döyüşlər gedir. Bir çoxları bu gərginliyi Donbasdakı döyüşlərlə və Ukrayna və Dnestryanı bölgə ilə sərhəddə gərginliyin artması ilə eyni sıraya qoyur. Guya ABŞ Rusiyanı hərbi konfliktlərlə mühasirəyə almaq istəyir. Fikrimcə, bu, böyük bir şişirtmədir. Donbasda və Dnestryanı bölgədə ABŞ-ın Rusiyaya birbaşa təzyiqi var. Güney Qafqazda isə Azərbaycan müharibə istəmir, sadəcə, məqamdan istifadə edib məsələ qaldırmaq istəyir ki, işğal altındakı boş qalan rayonları qədim Şuşa və Tərtərdəki su anbarı ilə birgə ona qaytarsınlar , hansılar ki, Ermənistan tərəfindən işğal olunub və harada ki, həmişə azərbaycanlılar yaşayıb".

**Markovun sözlərinə görə, Ermənistan bu əraziləri artıq 25 ildən çoxdur ki, boş saxlayır:** "Onları gələcək üçün, öz aləmlərində Qarabağın tanınması qarşılığında mübadilə üçün saxlayırlar. Bakı isə bu xalis Azərbaycan torpaqlarını indi özünə qaytarmaq, yalnız ondan sonra Ermənistanla Dağlıq Qarabağ haqda danışmaq istəyir. Bundan ötrü ABŞ yox, məhz Azərbaycan son 15 ildə iqtisadi bum hesabına əldə elədiyi hərbi üstünlüyünü nümayiş etdirir. Məqam ona görə əlverişlidir ki, Rusiya və ABŞ bu dəqiqə Ermənistanın hayında deyil. ABŞ və Rusiya Ermənistanı həmişə dolayasıyla müdafiə edib. İndi isə onlar Ukraynaya görə konfliktdədirlər".

***

"Hazırkı dönəmdə Rusiya Ukraynadakı situasiya ucbatından Qarabağ konfliktinin "donunun açılmasında" maraqlı deyil. Ona görə ki, bu və ya başqa şəkildə Kreml Avrasiya Birliyinin üzvü olacaq Ermənistanı qorumalı olacaq. Mən qəsd (sazişçilik) nəzəriyyəsinə istinad eləmək istəməzdim, amma Qarabağdakı mövcud durumun Qərbin hərəkətləri ilə bağlı olduğunu da istisna eləməzdim". Bunu isə **Kornegi Fondunun Moskva Mərkəzinin Elmi Şurasının üzvü Aleksey Malaşenko** "Qolos Rossii" radiosuna deyib.

Sankt-Peterburqdakı Müasir Yaxın Şərqi Öyrənmə Mərkəzinin analitiki Aleksandr Sotniçenko isə məsələdə birbaşa - barmaqla göstərir. Onun zənnincə, regiondakı latent (gizli) münaqişə Qərbin region ölkələri və Moskvaya yaxşı təzyiq alətidir.

***

Digər qisim rus təhlilçilər hesab edirlər ki, Qarabağda lokal müharibədə Birləşmiş Ştatlar hər halda maraqlı ola bilərdi. Çünki belə bir müharibə Azərbaycanda və ya Ermənistanda daxili narazılığı pik həddə çatdırmaqla Rusiyanın xeyrinə olmayan rəngli inqilablara və rejim dəyişikliyinə gətirmək, eyni zamanda Ermənistanın, eləcə də yaxın perspektivdə Azərbaycanın Avrasiya İqtisadi Birliyinə qoşulmasını əngəlləmək gücündədir. Çünki Ağ Evdə bilirlər ki, Qarabağ ixtilafı hər iki Güney Qafqaz ölkəsində situasiyanı partlatmaq iqtidarındadır.

Ancaq o da var ki, Vaşinqtonun bunun üçün Rusiya kimi tərəflərə birbaşa yetərli təsir imkanları yoxdur, yalnız yanakı təsir rıçaqları mövcuddur. Məsələn, erməni ekspertlərindən birinin fikrincə, ABŞ öz diplomatları - vasitəçi Ceyms Uorlik və Ermənistandakı səfir Con Heffernin dilindən erməni tərəfinə açıq mətnlə keçmiş DQMV ətrafındakı 7 rayonun qaytarılmalı olduğunu bəyan eləməklə, Bakını bu rayonları hərblə geri almaq üçün müharibəyə təhrik edib.

❑ **Siyasət şöbəsi**

# Ermənistan canlı itkilərini gizlədə bilmir

## Cəbhədəki son döyüşlərdə 47 erməni hərbçisi öldürülüb; XİN-in sabiq başçısı: "Hər gün gənc hərbçilərimizi itiririk..."

**Qarabağ münaqişəsi zonasında vəziyyət gərgin olaraq qalır. Avqustun ilk günlərində qarşıdurmanın daha böyük miqyas alması canlı itkilərdə də özünü göstərmiş oldu. Lakin Azərbaycan tərəfi öz itkilərini bəyan etməkdən çəkinməsə də, işğalçı Ermənistan daxildə güclü ictimai narazılıqların baş qaldıracağından ehtiyatlanaraq, onları israrla gizlətməyə, kiçiltməyə çalışdı.**



İndi də rəsmi İrəvan təbliğatda və antitəbliğatda ənənəvi yalana söykənərək yalnız 5-6 hərbçinin öldürüldüyünü, Azərbaycanın isə qat-qat çox itki verdiyini iddia edir. Bununla belə, ermənilərin itkiləri rəsmi səviyyədə olmasa da, işin içində olan, o sırada vaxtilə yüksək dövlət postları tutmuş ayrı-ayrı şəxslər, ekspert və analitiklər tərəfindən etiraf olunmaqdadır.

"Rusiya münaqişəni qızışdırmaqla Qarabağ konflikti zonasına öz hərbi qüvvələrini yerləşdirməyə can atır". **Musavat.com-un erməni KİV-ə istinadən verdiyi xəbərə görə, Ermənistanın keçmiş xarici işlər naziri, deputat Aleksandr Arzumanyan bu fikirdədir. Arzumanyanın əminliyinə görə, Rusiyanın təxribatları ucbatından erməni tərəfi hər gün hərbi qulluqçular itirir.** "İndi çoxları müharibənin bərpa olunmasından danışır. Mənim dərin inamıma görə, Ermənistanla Azərbaycan arasında münasibətləri məhz Rusiya kəskinləşdirir", - deyə keçmiş diplomat qeyd edib.

Bu arada bəlli olub ki, cəbhə xəttində son gərginlik zamanı 47 erməni hərbçisi məhv edilib. Rusiyadakı diplomatik mənbələrdən APA-ya daxil olan məlumata görə, Ermənistan-Azərbaycan dövlət sərhədi və qoşunların təmas xəttində Ermənistanın kəşfiyyat-təxribat qruplarının Azərbaycan Silahlı Qüvvələrinin mövqeyinə basqını zamanı 47 erməni hərbçisi məhv edilib, 100-dən çoxu isə yaralanıb. Ölənlərdən 17-si Ermənistan ordusunun Dağlıq Qarabağda dislokasiya olunmuş hərbi hissələrinin əsgəri, 30-u isə Dağlıq Qarabağdakı separatçı rejimin nəzarətində olan muzdlu hərbi qulluqçudur.

Mənbə bildirib ki, Ermənistan ordusunun məhv edilmiş əsgərlərinin adları tədricən açıqlansa da, öldürülmüş muzdlu hərbçilər barədə informasiya qapalı saxlanılır.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti və nazirliyin rəsmi şəxsləri də ermənilərin dəfələrlə çox itki verdiyi barədə məlumat yayıblar.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014

# MSK sədrinin qohumu Ukraynada öldürüldü

**Ukraynanın Luqansk vilayətinin Krasnıy Luç şəhərində Azərbaycan diasporunun üzvü, iş adamı Rövşən Qasımov şəxsi avtomobilində partladılaraq öldürülüb. Luqansk Vilayəti Azərbaycanlıları Konqresinin sədri Rasim Uğurluyev APA-ya açıqlamasında bildirib ki, hadisə avqustun 4-də axşam baş verib.**

R. Uğurluyevin sözlərinə görə, Ukrayna vətəndaşı, əslən Azərbaycanın Tovuz rayonunun Xatınlı kəndindən olan, 1966-cı il təvəllüdlü Rövşən Qasımov şəxsi avtomobili ilə Krasnıy Luç şəhərinin girəcəyində separatçılar tərəfindən atəşə tutulub: "Avtomobil qumbaraatanla vurulub. Rövşən Qasımov həlak olub, cəsədi yanaraq tanınmaz hala düşüb".

R. Qasımovun Azərbaycanın Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun yaxın qohumu olduğunu bildirən R. Uğurluyev qeyd edib ki, hazırda onun meyiti Krasnıy Luçda yaxınlarındadır: "Harada dəfn olunması ilə bağlı özləri qərar verəcəklər".

R. Uğurluyevin sözlərinə görə, R. Qasımovun Luqanskda iri fermer təsərrüfatı olub. Separatçılar bir ay əvvəl onu, sonra isə ailəsini girov götürüblər. Aparılan danışıqlar nəticəsində iş adamı və ailəsi girovluqdan azad olunub.

Tovuz rayonu Xatınlı kəndinin icra nümayəndəsi Nurəddin Məmmədov APA-ya faktı təsdiqləyərək bildirib ki, həlak olmuş R. Qasımov MSK sədri Məzahir Pənahovun yaxın qohumudur: "Rövşənin anası ilə Məzahir müəllimin atası əmi uşağıdır".

# Bakıda 17 və 13 yaşlı iki qız yoxa çıxıb

**Bakıda iki nəfər itkin düşüb. Səbayel Rayon Polis İdarəsindən lent.az-a verilən məlumata görə, Yüzbəy Mürsəlov küçəsində yaşayan 1997-ci il təvəllüdlü Əliyeva Aidə Rəhim qızı iyulun 30-u evdən çıxıb və bir daha geri qayıtmayıb. Polisə müraciət edən 17 yaşlı qızın atası onun xarakterik əlamətlərini təqdim edib.**

Oxşar müraciət Sabunçu Rayon Polis İdarəsinə də daxil olub. APA-nın məlumatına görə, Yeni Suraxanı qəsəbəsi, B. Mirqəzəm küçəsi, ev 13-də yaşayan 1982-ci il təvəllüdlü Manafova Səmənnaz Rəcəb qızı avqustun 4-də 13-cü Polis Bölməsinə şikayət ərizəsi ilə müraciət edərək bildirib ki, psixoloji problemləri olan qızı 2001-ci il təvəllüdlü Manafova Alsu Müşfiq qızı avqustun 1-də Bakıxanov qəsəbəsində yerləşən "Anastasiya" idman kompleksinə idmana gedib, oradan təxminən saat 15:00-da çıxaraq naməlum şəraitdə itkin düşüb. O da bildirilib ki, A. Manafova əvvəllər də bir neçə dəfə evdən xəbərsiz gedib.

A. Manafovanın çəkisi 82, boyu 162 sm, gözlərinin rəngi qəhvəyi, dolu sifət, saçı qara rəngdədir. O, itkin düşdüyü gün əynində ağ rəngdə köynək, qara rəngli şalvar, ayağında qara rəngli idman ayaqqabısı olub.

Faktla bağlı araşdırma aparılır.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Krıma gedən turistlərin sayı kəskin azalıb

## Turizmlə məşğul olan şirkətlər xaricdə dincəlmək üçün ən ciddi problemin viza ilə bağlı olduğunu deyirlər

**Azərbaycan vətəndaşlarının zaman-zaman istirahətə getdiyi məkanlardan biri də Krım idi. Səfərlər təşkil edilən populyar istirahət düşərgələri arasında Krım özünəməxsus yer tuturdu. Maraqlıdır, vətəndaşlarımızın ötənlərdə istirahət üçün yollandığı bu turistik zonaya orada baş verən siyasi çaxnaşmalardan sonra üz tutan olubmu?**

Ümumiyyətlə, vətəndaşlarımız dincəlmək niyyətl ilə bu il əsasən hansı ölkələrə gedib?

Suallarımızı cavablandıran **"Aztranstur" turizm şirkətinin meneceri Ramilə Şirinova** bu il də Krıma gedən soydaşlarımızın olduğunu söylədi: "Təbii ki, əvvəlki illərə nisbətən gedənlərin sayı az oldu".

Turpaketin qiymətlərindən danışan R.Şirinova turistin seçi-



mindən asılı olaraq qiymətlərin dəyişdiyini bildirdi. O, gediş-gəliş biletləri, gündə 3 dəfə yemək, hotelin təşkili daxil olmaqla, 1 həftəlik turpaketin 1 nəfər üçün 1300 manata başa gəldiyini dedi.

**Menecer ölkə vətəndaşlarının bu il də ən çox Türkiyənin Bodrum və Antalya şəhərlərinə getdiyini dedi:**

"Bu şəhərlərə 1 həftəlik hər şey daxil 2 nəfərlik turpaketin qiyməti 2350 manatdan başlayır".

Avropa ölkələri arasında vətəndaşlarımızn əsasən Praqaya səyahət etdiyini deyən şirkətin əməkdaşı buraya 1 həftəlik 2 nəfərlik turpaketin qiymətinin 3000 manatdan başladığını bildirdi.

Rayonlara da səfərlər təşkil edən turizm firması əsasən Quba, Qusar və Qəbələyə turlar təşkil etdiklərini dedi. R.Şirinova istirahətə insanların tək-tək az getdiyini, adətən ya 2, ya da bütöv ailənin getdiyini söylədi.

**"Bestar Travel" firmasının əməkdaşı** isə keçən il Krıma 20 nəfərə yaxın turist göndərdiklərini desə də, bu il heç bir nəfərin də sözügedən bölgəyə getmədiyini bildirdi.

**"Granit AS Travel" şirkətinin təmsilçisi Leyla xanım** da Krımda gedən siyasi proseslərlə bağlı bu il bir nəfərin belə oraya getmədyini dedi. Krıma səfər etməyin əvvələ nisbətən hazırda baha başa gəldiyini vurğulayan əməkdaş biletlərin qiymətində artım olduğunu söylədi.

**Ölkə vətəndaşlarının bu il əsasən Avropa ölklərinə səfər etdiyini deyən Leyla xanım Şengen vizası ilə bağlı problemlərə də toxundu:**

"Bizim viza təşkil etmək kimi səlahiyyətimiz yoxdur. Yalnız yardım edirik. O da həmişə alınmır. Məsələn, 4 nəfərdən ibarət ailə vardı. Həmin ailənin 3 üzvünə viza verilsə də, birinə vermədilər. Ona görə səfərlərini təxirə saldılar".

**"Elegant-M" LTD-nin əməkdaşı Marina xanım** da bu il Krıma səfər edən insanın olmadığını dedi. Tariflərdən asılı olaraq qiymətlərin dəyişdiyini deyən əməkdaş bir neçə nümunə ilə bizi tanış etdi: "Məsələn, Yaltada 2 nəfərin bir həftə istirahəti 700 manata başa gələ bilir. O halda ki, biletləri özləri alır. 550 manatlıq da paket var. O da biletsizdir. Bizim insanlar Krıma adətən dənizə, təmiz havasına görə gedirdilər".

❑ **Fərİdə ABDIYEVA**









Azercell

# «Azercell» müştəri suallarını 100% cavablandırır

## Şirkətin liderliyi bir daha təsdiq olundu

**Azərbaycan mobil bazarının lideri «Azercell Telekom MMC» Azərbaycanda və bütün regionda ilk dəfə olaraq facebook sosial şəbəkəsindəki rəsmi səfihəsində müştəri istəklərinin 100% cavablama nəticəsini əldə etdi. Beləlikə, «Azercell» artıq dördüncü dəfədir ki, onlayn müştəri xidmətləri sahəsində rekord göstəricilərə nail olaraq, bu ilin II rübü üçün "Socialbakers" beynəlxalq tədqiqat təşkilatından "Socially devoted" (Sosial sədaqətli) sertifikatına layiq görülüb.**

**2014-cü ilin I rübündə «Azercell»in bu göstəricisi 97%-ə bərabər idi və şirkət ən qısa zamanda bu rəqəmi 100% çatdırmağı planlaşdırırdı. Bələliklə, qısa bir zaman ərzində «Azercell Telekom» qarşısına qoyduğu bu məqsədə nail olaraq, Azərbaycanda daha bir ilkə imza atdı.**

**Məlumat üçün bildirək ki, hələ 2012-ci ildə facebook səhifəsində istifadəçilərin verdiyi sualların operativ şəkildə cavablandırılmasına görə «Azercell» ölkədə "Socially devoted" adına layiq görülmüş ilk mobil operator olmuşdur. Sertifikata layiq görülmək üçün səhifə istifadəçilərinin ildən-ilə artan müraciətlərinin cavablandırma səviyyəsi ölçülür. Yüksək istifadəçi sayı ilə bərabər Azercell həmçinin, səhifədəki abunəçilərin fəallığı və aktiv istifadəsi baxımından da dəfələrlə ilk yerləri qazanıb.**

**Onu da qeyd edək ki, sosial şəbəkələrin monitorinqini keçirən məşhur "Socialbakers" şirkətinin apardığı araşdırma göstərib ki, istifadəçilərin sayına görə «Azercell»in Facebook səhifəsi ölkədə ilk yerlərdən birini, mobil operatorlar arasında isə birinci yeri tutur. Hazırda «Azercell»in rəsmi Facebook səhifəsinin istifadəçilərinin sayı 375 000 nəfəri ötüb və bu rəqəm gündən-günə artmaqdadır.**

**Qeyd etmək istərdik ki, «Azercell» həm sosial şəbəkələrdə rəsmi səhifə, həm də onlayn rejimdə çalışan müştəri xidmətləri yaradan ilk mobil operator olmuşdur. Bu yeniliklərin tətbiqində məqsəd abunəçilərlə daha sıx əlaqənin qurulması, onlara yeniliklər haqqında operativ məlumatın çatdırılması idi. Nəticədə «Azercell» abunəçiləri 24/7 rejimində yüksək keyfiyyətli xidmətdən yararlana bilir və altı fərqli sosial şəbəkənin imkanlarından istifadə edirlər: facebook, twitter, disput.az, google+, youtube və ınstagram. Bu şəbəkələrdə verilən suallar ən qısa zamanda, hətta bir neçə saniyə ərzində cavablandırılır.**

**Telekommunikasiya xidmətlərində liderliyi qoruyan «Azercell» hər zaman olduğu kimi, digər yenilikçi sahələrdə də birinci olmağa, abunəçilərinə ən son texnologiyalara çıxış imkanı yaratmağa çalışır. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz «Azercell Telekom MMC» 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna Azercell abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell 3G», 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.**

## Başsağlığı

**Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Fazil Mustafa jurnalist Anar Bayramoğluna qızının faciəli vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının məlumatına görə, 33 623 nəfər ali təhsil müəssisələrinə qəbul olunub. Abituriyentlərdən 16129 nəfərini oğlanlar, 17494 nəfərini qızlar təşkil edir. Tələbə adı qazanmış şəxslər 2014-cü il avqustun 8-dən 18-dək sənədlərini daxil olduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər. Modern.az- saytı xəbər verir ki, bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) bəyan edib.**



# Jurnalist övladları qəbul imtahanından üzüağ çıxdılar

## Həmkarlarımızın övladları ən yaxşı ali təhsil ocaqlarına qəbul olunublar

"Tələb olunan sənədlər barədə məlumatı daxil olduğunuz ali təhsil müəssisəsindən əldə etməlisiniz. Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək".

Builki qəbul imtahanlarında yüksək bal tolayaraq, ali məktəb tələbəsi olanlar sırasında tanınmış jurnalistlərin də övladları var.

"Yeni Müsavat" qəzetinin şərhçisi Azər Rəşidoğunun qızı Ülkər Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olunub. "Qızım Ülkər 600 balla Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olundu. Bu fakültədə oxumaq ən böyük arzusu idi"-deyə Azər Rəşidoğlu sevincini bölüşüb.

Digər tanınmış jurnalist, aktual.az saytının rəhbəri Anar Yusifoğlunun qızı Aytən Yusifzadə Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunub. Bir neçə gün öncə jurnalistin oğlu Elnur Yusifzadə İstanbul Universitetinin fəlsəfə fakültəsinin tələbəsi adını qazanmışdı.

Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətinin rəhbəri, jurnalist Əmrah Fəqanoğlunun da ailəsində sevinc yaşanır. Belə ki, onun oğlu Kənan yüksək balla Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olunub.

Modern.az saytının redaktoru Əziz Rzazadənin isə iki övladı ali məktəbə daxil olub. Həmkarımızın oğlu Murad Dövlət İqtisad Universitetinin kommersiya fakültəsinin, qızı Dilarə isə Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsinin tələbəsi adını qazanıb.

"Azadlıq" qəzetinin redaktoru Rövşən Hacıyevin qızı Gülər Azərbaycan Memarlıq və İnşaat Universitetinin memarlıq fakültəsinin tələbəsi adını qazanıb.

"Olaylar" qəzetinin parlament müxbiri Alim Hüseynlinin oğlu da tələbə adını qazanıb. Həmkarımızın oğlu Zəka Hüseynli Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunub.

Tələbə adı qazananlar sırasında "Yeni Müsavat"ın redaktoru Nazim Sabiroğlunun bacısı qızı da var. İmtahanda yüksək bal toplayan Lalə Cəfərova ADA-nın beynəlxalq münasibətlər fakültəsinə qəbul olunub.

Yeri gəlmişkən, 2014-2015-ci tədris ilində Azərbaycan universitetlərinin jurnalistika fakültələrində ümumilikdə 47 nəfər təhsil alacaq.

Qeyd edilib ki, həmin gənclərdən 26-sı dövlət sifarişi, 21-i isə ödənişli əsaslarla təhsil alacaq. Jurnalistika fakültələrinə qəbul olunanlar aşağıdakı kimi bölünür:

**Bakı Dövlət Universiteti - 40 nəfər**

**Azərbaycan Dillər Universiteti - 4 nəfər**

**Bakı Slavyan Universiteti - 2 nəfər**

**Naxçıvan Dövlət Universiteti - 1 nəfər**.

Qeyd edək ki, bu ildən etibarən jurnalistika fakültəsinə ixtisas seçimi müsabiqə yolu ilə aparılıb. Müsabiqədən isə cəmi 51 nəfər məqbul qiymət alıb.

Daha bir maraqlı məqam bu il ali məktəblərə keçirilən qəbul imtahanlarında 700 bal toplayanların ixtisas seçimidir. Xatırladaq ki, bu il ümumilikdə 9 nəfər rekord nəticə göstərərək 700 bal toplayıb.

Maraqlıdır, rekordçularımız hansı universitetlərdə təhsil alacaqlar və xaricdə təhsillərini davam etdirmək fikirləri varmı?

Azvision.az sözügedən tələbələrlə əlaqə saxlayıb.

**I ixtisas qrupun üzrə 700 bal toplayan Bakı şəhəri, kimya-biologiya təmayüllü liseyin məzunu Eltun İbrahimov ali məktəbə qəbul olduğu üçün sevincli olduğunu bildirib:** "Bakı Ali Neft Məktəbinin proseslərin avtomatlaşdırılması fakültəsinə daxil oldum. Sevdiyim ali məktəbdir. Xaricdə oxumaq fikrim də var, əgər universitetdən göndərsələr, gedib təhsilimi davam etdirərəm".

**I ixtisas qrupu üzrə digər rekordçu - Bakı şəhəri, "Zəkalar" liseyinin məzunu Nurlan Quluzadə Azərbaycan Diplomatiya Akademiyasının informasiya texnologiyaları fakültəsində təhsil alacaq:** "Ürəyimcə olan bir ixtisasdır. Bir il burada oxuyub, daha sonra xaricdə təhsilimi davam etdirəcəm".

**I ixtisas qrupu üzrə Bakı şəhəri, BDU-nun nəzdində yaradılmış Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunu Nəbizadə Fatimeyi Zəhra:** "Qafqaz Universitetinin kimya mühəndisliyi fakültəsində oxuyacağam. Bir il burada təhsil alıb, vəziyyətə baxacam. İmkan olsa, gedib xaricdə oxuyacam. İxtisas seçimini də özüm etmişəm".

**II ixtisas qrupu üzrə 287 saylı "Zəkalar" liseyinin məzunu Qoşqar Qədimbəyli Azərbaycan Diplomatiya Akademiyasının beynəlxalq münasibətlər fakültəsinə daxil olub:** "Xaricdə təhsil almaq istəyirəm, amma hələ qəti fikrim yoxdur".

**IV ixtisas qrupu üzrə Ağdam rayonu, Çəmənli kənd orta məktəbinin məzunu İlkin Məmmədzadə Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub:** "Birinci il burada oxuyub, ikinci ildən Türkiyəyə gedəcəyəm".

**IV ixtisas qrupu üzrə Ağsu rayonu, 1 saylı şəhər orta məktəbin məzunu Nicat Qasımov da Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olunub:** "Bu, uşaqlıqdan istədiyim bir ixtisasdır. Xaricdə oxumaq fikrim də var".

# Mikayıl Cabbarov Misir Mərdanov dövrünü ifşa etdi

## "2 min saxta müəllim işə götürüblər"

**Təhsil naziri Mikayıl Cabbarov ölkənin təhsil sistemində hökm sürən acınacaqlı vəziyyət barədə faktları açıqlayıb.**

Virtualaz.org saytı xəbər verir ki, nazir rusiyalı blogger Vyaçeslav Sapunova verdiyi müsahibədə Azərbaycanda hazırda 2 mindən çox adamın saxta diplomla müəllim işlədiyini deyib. Müsahibə Sapunovun bloqunda (http://sapunov.livejournal.com/) yerləşdirilib.

**Nazirin sözlərinə görə, hazırda Azərbaycanda saxta diplomlu bir neçə min nəfər var:** "Hazırda istintaq gedir və ola bilsin ki, hüquq-mühafizə orqanları dəqiq rəqəm müəyyən edə biləcəklər. Lakin biz artıq dəqiq bilirik ki, belə adamlardan 2 mindən çoxu saxta diplomla orta təhsil sistemində işə düzəliblər, onlar əsasən respublikanın rayonlarında işləyirlər".



Mikayıl Cabbarov



Misir Mərdanov

**Mikayıl Cabbarov bildirib ki, saxta diplomla müəllim işləyənləri adbaad tanıyırlar:** "Bütün məlumatları Baş Prokurorluğa təqdim etmişik, saxta diplomları kimlərin satdığı barədə məlumatları da vermişik. Bu adamların arasında təhsil sistemində rəhbər vəzifə tutanlar da var".

**M.Cabbarov deyib ki, nazirlik saxta müəllimlərlə bağlı dilemma ilə üzləşib. Çünki diplomu saxta olan 2 mindən çox müəllimin eyni vaxtda işdən çıxarılması təhsildə ciddi problem yarada bilər, ona görə ki, onları əvəzləməyə adam yoxdur:** "Axı onların çoxu kənd məktəblərində dərs keçir.

Nəhayət, bu adamların arasında dələduzluq qurbanı olanlar da az deyil. Onlar səmimi şəkildə inanıblar ki, tələbədirlər, dərsə gediblər, sessiyaları veriblər, onlar üçün xüsusi jurnallar, cədvəllər açılıb. Bundan əlavə, bəziləri bizim test imtahanlarımıza qatılıblar və peşəkarlıqlarını sübut ediblər!

Yalnız araşdırma zamanı məlum olub ki, onların diplomlarını Təhsil Nazirliyi verməyib. Təhsil sistemində təmizləmə davam edəcək, ancaq bunu birdən etmək mümkün deyil".

Xatırladaq ki, Azərbaycanda saxta diplomlu müəllimlər qalmaqalı hələ bir neçə il əvvəl yaranıb. Keçmiş təhsil naziri Misir Mərdanovun işdən azad edilməsindən sonra Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bu işlə bağlı araşdırma başladıb.

Araşdırma zamanı Azərbaycan Müəllimlər İnstitutunun və Gəncə Dövlət Universitetinin kütləvi şəkildə saxta diplomlar satdığı barədə faktlar üzə çıxıb. Mətbuat bu işlə bağlı istintaqda Misir Mərdanovun da adının bir neçə epizod üzrə keçdiyini yazmışdı.

# Qoyun sanksiyası



Samir SARI

**Sanksiya kəlməsini ilk dəfə sovet vaxtı, uşaqlıqda eşitmişəm. O vaxt adamları tutardılar (əsasən xırda-para cinayətlərə və sosialist əmlakını talan etməyə görə) və hər dəfə kimsə tutulanda deyirdilər: "Prokurorun sanksiyası ilə tutublar".**

Ona görə də hamıda belə bir təəssürat yaranmışdı ki, sanksiya deyilən şey çox pis mərətdir, onu verən kimi adamın bəxti qara gəlir.

Sonradan aydın oldu ki, bu terminin həm hüquqi mənası var, həm də siyasi. Son vaxtlar daha prokurorlar sanksiya vermirlər, əvəzində dövlətlər, şirkətlər bir-birinə sanksiya tətbiq edirlər.

Bu çox qlobal bir hərəkata çevrilib. Güclü dövlətlərin əksəriyyəti Rusiyaya, onun banklarına, şirkətlərinə, məmurlarına sanksiya tətbiq edir. Hər gün yeni-yeni sanksiya xəbərləri gəlir. Kimin Rusiya ilə nə cür haqq-hesabı varsa, əlaqəni kəsir, deyir, mən də sanksiyalara qoşuluram. Hətta elə Avropa ölkələri var ki, gedib Rusiyadan arvad almaq işinə də veto qoyublar. Qabaqlar çox alırmışlar, daha almayacaqlar.

Vəziyyət o həddə çatıb ki, yaxın ətrafından kimsə Putinin yanında "sanksiya" sözünü dilinə gətirsə, Vladimiriç onun üstünə qışqırar, "von otsuda, padles" deyər. Çünki adam yuxuya gedəndə son eşitdiyi söz "sanksiya" olur, səhəri isə "daha bir sanksiya" xəbəri ilə açılır. Doğma şəhəri Sankt-Peterburqun adını belə içində "sank" olduğuna görə görməz-eşitməz hala gəlib.

Durum o dərəcədə kritikdir. Allahın Avstraliyası bəyan edib ki, o da Rusiyaya sanksiya tətbiq edir, daha ona qoyun satmayacaq - nə dirisini, nə cəmdəyini. Belə götürəndə bu balaca sanksiya deyil, çox strateji sanksiyadır. Hərçənd Rusiya məcbur olacaq ki, ehtiyacını Monqolustandan, Türkmənistandan, bizdən qoyun almaqla ödəsin. Bizdə qoyun çoxdur. Özümüzə də çatır, lazım olsa Rusiyaya da sata bilərik. İntəhası, bizim qoyunların qiyməti bahadır, Avstraliyanın qoyunları kimi ucuz deyil.

Sanksiyalara dair xəbərlərdən biri də ondan ibarətdir ki, Avropa ölkələrinin aviaşirkətləri öz təyyarələrini Rusiya səmasından uçurtmayacalar. Həm ona görə ki, Rusiya Ukraynaya hücum eləyib, həm də ona görə ki, rus atıcılarının əli şordur, bir də görürsən, havada özləri demişkən, "ptiçka" görən kimi, BUK-la vurub salırlar, sonra da üzə dururlar ki, bu, bizi istəməyənlərin işidir.

İşin ən pis tərəfi odur ki, Rusiya aviaşirkətlərinin təyyarələri də Avropa ölkələrinin səması ilə uçmaq haqqını itirə bilərlər. Belə bir söhbət gedir.

Rus məmurların işi lap ağırdır. Onlar Avropada gəzməyə öyrəncəli adamlar idi, amma sanksiyaya məruz qalıblar deyə qoca qitənin qocaman şəhərlərinə gedə bilməyəcəklər, öz milyonlarını Avropa banklarına yerləşdirmək imkanından məhrum olacaqlar.

Oxumuş adamlar deyir, bu sanksiyalar yavaş-yavaş Rusiyanın dizinin bükülməsinə gətirib çıxaracaq. Dünən Obama da elə bir söz deyib. ABŞ prezidenti bildirib ki, sanksiyalar Rusiya iqtisadiyyatı üçün ağır yükə çevrilməkdədir və öz nəticələrini verəcək.

Qərb bu xüsusda nikbindir, inanır ki, ruslar bu xasiyyət və hərəkətlərinin üzündən dünya ilə düşmən olduqlarını, böyük zərərlər gördüklərini anlayınca, ziyanın yarısından qayıtmaq istəyəcəklər. Amma rusların bir zərbül-məsəli var, tərcüməsi təxminən belədir: "Rusiyanı məntiqlə anlamaq mümkün deyil".

Yəni Rusiyanın müdrikləri heç vaxt ağıllı qərarlar qəbul etmirlər. Tutaq ki, gedib dayanıblar uçurumun qırağında. Gərək onlara deməyəsən ki, bir addım o tərəfdə uçurumdur, geri çəkil, yoxsa girdaba yuvarlanacasan. Dedinsə, məsələ bitdi, rusiyalı müdriklər mütləq irəli addım atacaqlar.

Tarixən belə olub. Ona görə də güman var ki, Rusiya dünya dövlətlərinin tətbiq etdiyi sanksiyalara qarşı sona qədər dirənəcək - iqtisadiyyatı çökənədək, diplomatları bütün ölkələrdən qovulana qədər...

Yaxşı ki, postsovet ölkələri Rusiyaya sanksiya tətbiq eləmir. Gürcülər Rusiyaya "vor-zakon" ixracını, ermənilər fırıldaqçı transferini, azərbaycanlılar "bazar alverçiləri" ezamını dayandırsalar, Kremlin dizi dəqiq yerə gələr. Hələ taciklər... Onlar da beynəlxalq sanksiyalara qoşulsalar, Moskva zibilin içində batar. Görək, kim süpürəcək küçələri...

YENİ MÜSAVAT
N 198 (5907) 8 avqust 2014




# Həddini aşanda bədbəxtliyə aparan iki qüvvə

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Həyatda baş verənlərin o zaman insan üçün tərbiyəvi nəticəsi olur ki, o, öz əməllərində dəyişikliyə nail olsun. Təlim-tərbiyənin əsas göstəricisi - insanın əməllərində və davranışlarında dəyişikliyin hasil olmasıdır. Əks halda, insan əgər nələrisə öyrənib edirsə, amma onlar insanın davranışında yaratmırsa, bunlar insanın tərbiyələnməsinə dəlalət etmir. Ona görə də nələrinsə vəziyyətmizə, halımıza təsirinin olduğunu o zaman söyləyə bilərik ki, davranış və rəftarlarımızda dəyişiklik olsun.**

## Ömür - ən böyük nemətdir

Dünya nemətləri də elə bu cürdür. İnsanlar cari həyatlarında nemətlərdən bəhrələnmirlər, nemətlər gözünün qabağında ola-ola onlardan istifadə etmirlər. O cümlədən, ən böyük nemət olan ömür imkanlarından da əslində istifadə etmirlər. Ömür ona görə ən böyük nemətdir ki, biz bu həyatımızda diri ikən edə biləcəyimizi dünyamızı dəyişəndən sonra heç vaxt edə bilməyəcəyik. Vay olsun o halımıza ki, biz hər məsələmizə vaxt tapırıq, özümüzdən başqa. Gerçək bədbəxtlik, insanın gerçək süqutu və məhvi də buradan başlayır.

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Allahın iblislə rəftarından dərs alın. Belə ki, Allah Təala onun uzunmüddətli işini, yorucu zəhmətlərini bir anlıq təkəbbürə görə batil etdi. O, altı min il Allaha ibadət etmişdi. Və özü də məlum deyil bunlar dünya illərindəndir, yoxsa axirət illərindən". Həzrət Əmirəlmöminin (ə) ən çox əməl edən bəşər övladlarından biridir. Diqqət edər, əməl edər, heç bir sözü, özü əməl etmədən deməz. Əslində, insan anlamaq istəsə, Həzrətin (ə) bir bu buyuruşu ona bəs edər. Allahın lütfü ilə, bizə verdiyi tofiqatlarla hər hansı yaxşı işlərimiz, davranışlarımız olar, namazımız, orucumuz, ibadətimiz olar. Amma əgər bunların müqabilində özümüzdən razılığımız meydana gəlsə, heç bir ibadətimizin artıq bizə faydası gəlməz. Əgər bütün etdiyimiz yaxşı işlər müqabilində özümüzdən razılıq, təkəbbürlük meydana gəlsək, məhv olmuş olarıq. Bu anlamda ən bariz nümunə - şeytandır (lən). Bir an təkəbbür bütün olanı aradan apara bilir.



## İblisi (lən) insana hakim edən üç günah

**Əziz İslam Peyğəmbəri (s) buyurur:** "Musa (ə) oturmuşdu və İblis (lən) onun yanına gəldi. Musa (ə) buyurdu: "Mənə elə bir günahdan xəbər ver ki, insan onu edəndə sən ona hakim olasan". İblis (lən) dedi: "Özündən razı olmaq, əməlini çox görmək, günahı öz nəzərində kiçik görmək""".

Bütün bəlalar əslində bu üç şeydədir. Adam özündən, halından, vəziyyətindən razı olsa, artıq şeytan (lən) ona hakim olub. Bu adamı şeytan (lən) əslində minib çapır. Özümüzdən razı olan an, bədbəxtliklərimiz başlayır. Artıq şeytana (lən) əlavə yollar axtarmağa ehtiyac qalmır. İnsanı minib çapmış kimidir.

Əməllərimizi çox görəndə və günahlarımızı az görəndə şeytan (lən) insana sahiblənmiş olur. Fərdi, ailə, ictimai həyatda - həyatın bütün səhnələrində insan üçün bu üç məsələ adiləşmiş olanda, artıq şeytan (lən) ona tam sahiblənmiş vəziyyətdə olar. Artıq insan öz-özünü uçuruma aparar. Bütün müstəvilərdə edilən yalnışlıqlar, səhvlər, günahlar bu üç məsələ ətrafındadır.

## İnsanın təvazökar olması üçün həddini bilməsi kifayətdir

**Mübarək dinimiz necə ki məhvə, uçuruma sürüklüyən məsələləri göstərir, eləcə də xilas yollarını bəyan edir. Necə ki, insan təkəbbürlülük etməklə, özündən razı olmaqla özünü uçuruma aparır, eləcə də təvazökarlıq nümayiş etdirməklə Allaha yaxınlaşır, təkamül edir. Həzrət Əli (ə) buyurur:** "İnsanın təvazökar olması üçün onun öz həddini bilməsi kifayətdir". İnsanı özünü tanıyarkən öz həddini və yerini bilməsi - çox önəmli məsələdir. Əgər özünü tanısa və öz həddini bilsə, artıq bəzi nəticələrə çatar. Deməli, bizim qüsurlarımızın kökündə dayanan ciddi məsələlərdən biri budur ki, biz özümüzü tanımırıq, varlıq aləmində öz yerimizdən xəbərimiz yoxdur. Əgər biz özümüzü tanısaq, yaradılmağımıza fikir versək, ehtiyaclılığımıza fikir versək, hər an fitrətimizin fərqində olsaq, başdan-ayağa məhdud varlıq olduğumuzu anlasaq, ötəri, müvəqqəti bir həyata malik olduğumuzu anlasaq və varlıq aləminin içində fiziki anlamda hesaba gəlməyən dərəcədə kiçikliyimizi və zərrəcikliyimizi anlasaq - yerimizi bilərik. Bütün bunları yaradanın, xəlq edənin qarşısında, yaşadanın qarşısında yerimizi bilərik. Yerimizi bilsək, təvazö edərik.

Allaha bəndə olmaq - elə Allah qarşısında təvazö etməkdir. Allaha bəndə olmaq - Onun buyuruşlarının sərhədlərini yaşatmaqda təvazö etməkdir. Öz yerimizi bilsək, rəftarımızda, halımızda hər hansı təkəbbür, özündən razılıq, üstünlük istəmək olmaz. Deməli, bütün məsələlərin kökündə yenə də bu dayanır ki, biz öz həddimizi, yerimizi bilmirik.

## Təvazökarlıq - camaatla, səninlə edilməsini istədiyin kimi rəftardır

**Həzrət İmam Rza (ə) buyurur:** "Təvazökarlıq - camaatla səninlə edilməsini istədiyin tərzdə rəftar etməyindir". Yəni təvazökarlıq budur ki, insanlarla elə rəftar edəsən ki, onların səninlə o cür rəftar etməsini istəyirsən. Sən bir məclisə daxil olarkən camaatın ayağa qalxmasını istəyirsənsə, sən də insanlarla ayağa qalxıb görüşməlisən. Əgər sən insanların səninlə ehtiramla davranmasını istəyirsənsə, o zaman sən də onlarla ehtiramla davranmalısan. Təvazökarlıq - özün üçün nə istəyirsənsə, başqaları üçün də onu istəməkdir. Allah qatında özünün və digər insanların yerini bilsən, bu cür rəftar edərsən.

**Həzrət Əli (ə) təvazökarlığın meydana çıxdığı və təvazökarlığın əmələ gəldiyi bir mərkəzə də işarə edir. İmam (ə) buyurur:** "Təvazökarlığa yalnız sinənin salamat olması və pak qəlb ilə çatmaq olar". Yəni insan o zaman təvazökar olar ki, qəlbi sağlamdır, mərəzlərdən müalicə olunub, paklanıb. Çünki, ora xəstəliklərlə, həvayi-nəfslə, dünya ilə, şeytanın (lən) vəsvəsələri ilə dolanda, orada başqa məhsullar üzə çıxır. Belə qəlbdən təkəbbür, özündən razılıq, həsəd kimi nəticələr üzə çıxır.

**Həzrət Əmirəlmöminin (ə) təvazökarlığın daha bir çalarını açıqlayaraq buyurur:** "Təvazökarlıq elmin səmərəsidir". İnsanın agahlığı, tanıması olsa, bilgisi olsa - təvazökarlıq əmələ gələr. Elmi olan dərk edər ki, bu qədər ehtiyaclı olduğu, bu qədər asılı bir varlıq olduğu halda nəyə təkəbbürlülük edəcək? Elmlilik nəhayətdə insanı təvazökarlığa gətirib çıxarar.

## Təvazökarlıqda riyakarlıq etməmək

**Hətta təvazökarlılıqda da insanlar riyakarlıq və münafiqliyə yol verə bilərlər. Əziz Peyğəmbərimiz (s) buyurur:** "Münafiqcəsinə təvazökarlıqdan çəkinin. O, budur ki, cisim və bədənin təvazösü vardır, ancaq qəlbin yoxdur". Cisimdə təvazö ola, qəlbdə isə həmin təvazödən əsər-əlamət olmaya bilər. Bəzən baxırsan ki, zahirdə adamın cismi və bədəni təvazö halındadır, amma adamın ruhiyyəsində, qəlbində təvazökarlıq yoxdur. Bunun şərhində xüsusilə ibadətlərimizə işarə olunur. Bizim zahirdə cisim və bədənimiz ibadət edən zaman təvazö edir. Allah dərgahında rükuya əyilirik, səcdəyə gedirik və s. Zahirdə təvazö etmiş oluruq. Amma qəlbimiz o təvazönü yaşatmır. Əgər bütün ruhiyyəmiz və qəlbimiz Allah qarşısında səcdəyə getmirsə, Allah qarşısında əyilmir və bəndəliyi izhar etmirsə, bu, təvazö deyil. Yəni, zahirimiz, cismimiz, bədənimiz, təvazö elementlərinə malikdir, amma qəlbimiz həmin elementlərə malik deyil. Namazlarımız, oruclarımız ona görə bizi kamala çatdırmır ki, ancaq zahiri nəticələri olur. Əgər qəlbimiz oruc tutmasa, qəlbimiz namaz qılmasa, quru aclıq və susuzluqdan, quru hərəkətlərdən başqa bizə heç bir şey qalmaz. Əgər qəlbimiz Allah dərgahında təvazö etməsə və qəlbimiz Allah dərgahında ibadət etməsə, öz kiçikliyimizi, acizliyimizi Onun dərgahında təqdim etməsək, bu halda nəticələr heç yaxşı olmaz.

## İbadətin şirinliyi nədir?

**Həzrət Peyğəmbər (s) insanlara dedi:** "Nə üçün sizdə ibadətin şirinliyini görmürəm?". Dedilər: "İbadətin şirinliyi nədir?" Buyurdu: "Təvazökarlıq". İbadət o zaman şirin olar ki, tək cisim və bədən təvazö etməsin. Daxilimiz, qəlbimiz, ruhiyyəmiz təvazö etsə, ibadətimizin şirinliyi olar. Özümüzü Onun hüzurunda görək, Onun dərgahında kiçikliyimizi dərk edək. Əgər biz Rəbbimizin hüzurunda bunu anlasaq, xoş olsun bizim halımıza. Başqa hər bir şey təfərrüatdır. Biz öz həddimizi, öz kimliyimizi, niyə yarandığımızı unutmuşuq. Əgər onu unutmasaq, hallarımıza, ibadətlərimizə, rəftarımıza təsiri olar.

**İnsan təvazökarlığa nail olmaq üçün, gərək özü ilə məşğul olsun, öz eyblərinə diqqət ayırsın. Əgər bunu edə bilsə, ibadətlərinə daha diqqətlə yanaşacaq, mənfi vərdişlərindən çəkinəcək. İmam Museyi-Kazım (ə) buyurur:** "Hər kim özünü insanların abrını tökməkdən saxlaya, Allah-Təala Qiyamət günü büdrəməsindən keçər. Hər kim öz qəzəbini insanlardan saxlaya, Allah-Təala Qiyamət günü qəzəbini ondan saxlayar". Toplumun ən pis yazılmış məsələlərindən biri budur ki, bir-birilərinin abırlarını tökərlər, bir-birilərini eyiblərini ifşa edərlər. Abır əslində insanın malik olduğu ən dəyərli məsələlərdən biridir. Nəticə etibarilə insanların bir-birilərinin abrını aradan aparması - toplumda baş verə biləcək ən pis hadisələrdəndir. Odur ki, əziz İmam (ə) insanlara digərlərinin abrını aradan aparmaqdan çəkinməyi tövsiyə edir. Əgər insan bu dünyada büdrəmiş insanların abrını tökməzsə, Allah da Qiyamətdə onun büdrəmələrindən keçər. Hər kəsin nəhayətdə müəyyən bir xətası, yalnışlığı, səhvi var. İnancımız keçərli olmağı, güzəştli olmağı tövsiyə edir.

## Həddini aşanda bədbəxtliyə aparan iki qüvvə

Ötən bəhslərdə toxunduq ki, insanın günah etməsinin iki çox ciddi başlanğıcı var. İnsan günahlarının əksəriyyəti başlanğıcını bu iki məsələdən götürür. Bunlar - qəzəb və şəhvət qüvvəsidir. İnsanın etdiyi günahları sistemləşdirsək, görəcəyik ki, onların böyük əksəriyyəti qəzəb və şəhvət qüvvəsinin həddini aşmasından irəli gəlib.

Allah-Təalanın bizlərdə qəzəb və şəhvət qüvvəsini qoymasının səbəbi və hikməti var. Əgər bu iki qüvvə yerində istifadə olunarsa, insanın kamalına da vasitə olar. Amma onlar həddini aşanda insanı bədbəxtliyə aparır.

**Nəzarətə alınmayan qəzəb qüvvəsi insanı məhvə doğru aparan əsas amillərdən biridir. Qəzəb qüvvəsini nəzarətə almamağın cəzası olduqca böyük olduğu kimi, onu nəzarətə almağın da bir o qədər əcri və mükafatı var. İmam Baqir (ə) buyurur:** "Kim qəzəbini soyuda bilsə və onu udsa, Allah Qiyamət günündə onun qəlbini iman və rahatlıqla aşırıb-daşırar". İnsan özünə nəzarət etsə, qəzəb hissi, əksinə olaraq mərhəmət hissi ilə əvəzlənər. İradəvi olaraq qəzəbi nəzarətdə saxlamağı öyrənsək, so nradan bunu xasiyyət halına keçirə bilərik. Bu zaman Allah Qiyamət günü qəlbimizi iman nuru ilə aşırıb-daşırar.

İnsanın hər zaman diqqət etməli olduğu məsələlərdən biri də istəklərini nəzarətə almasıdır. İstəklər insanı məhvə apara bilər. Şəhvət qüvvəsi və bunun kökündə dayanan istəklər insanı o qədər bədbəxt edər ki, insan özü də təsəvvür etmədiyi səviyyəyə enər.

**Həzrət Əmirəlmöminin (ə) bizləri xəbərdar edirərək buyurur:** "Hər hansı bir eybdən pak və uzaq olmaq, şəhvət və nəfsi istəklərə hakim olmaqla mümkündür". İnsan şəhvət və nəfsi istəklərə hakim olmağı öyrənməlidir. Nə istəyir onun ardınca getməməli, ürəyi istəyəni etməməli və s. Əgər buna nail ola bilərs, eyblərdən pak olar.

**Allahım, bizlərə ehtiyaclılığımızı dərk edib təkəbbürlülükdən uzaq olmağı nəsib et!**

**Allahım, bizlərə yalnız cismimizdə deyil, qəlbimizdə təvazökar olmağı nəsib et!**

**Allahım, aqibətimizi xeyirli et! Amin!**



# Həmkarlarından İlqar Mikayıloğluna "güllə" kimi cavablar...

**Məhəmməd Türkmən:** "İndi o qocalıb, növbə bizimdir"
**Sevinc Vaqifqızı:** "İlqar Mikayıloğluna cavab verib zaman itirmək istəmirəm"
**İlqar Vəliyev:** "O, tükənmiş, iddiasız və qeyri-ciddi biridir"

**Bir neçə gün əvvəl tanınmış teleaparıcı İlqar Mikayıloğlu cəbhə xəttinə gedib, oradan yanlış xəbər verən jurnalistləri kəskin tənqid edib. Teleaparıcı cəbhəyə gedənləri saxta qəhrəman adlandırıb: "İndiki müxbirciklərin böyük əksəriyyəti cəbhə xəttinə xəbər gətirmək üçün getməyib.**

Onlara elə gəlir ki, Çingiz Mustafayev, Vahid Mustafayev, Mirşahin Ağayev, Şakir Eminbəyli, Gündüz Bakılı, Asif Bağırov, Vaqif Dərgahlı, mayor Rahib ola biləcəklər. Bir sözlə, qəhrəman olmaq istəyirlər. Onlara cəbhədə atışma oyun-oyuncaq gəlir. Çünki nə qulaqlarının dibində mina partlayıb, nə pulemyot onları palçığa sıxıb. Nə acından donmuş çörək yeməyiblər, nə səngərdə başlarının altına maqazin qoyub yatmayıblar. Nə də parçalanmış meyit daşımayıblar".

**Teleaparıcı həmçinin deyib ki, jurnalistlərin çoxu cəbhə bölgəsinə şəkil çəkdirmək üçün gedib:** "Gedib kəndin yol işarəsinin altında şəkil çəkdirməkdi onların işi və qanmazlıqları ucbatından yalan xəbər yaymaq. Bir sözlə, indikilərin böyük əksəriyyəti sırf özünü gözə soxub qəhrəman olmaq istəyir".

**Cəbhə bölgəsinə gedən jurnalistlər isə İ.Mikayıloğlunun bu ittihamlarına kəskin cavab veriblər. "Yeni Müsavat" ın əməkdaşı Məhəmməd Türkmən:** "Mənim İlqar Mikayıloğluna böyük hörmətim var. Amma onun sözlərinə cavab verməliyəm. İlqar bəy cəbhə xəttinə gedənləri saxta qəhrəman adlandırıb. Sözlərindən belə çıxır ki, cəbhə xəttinə gedənlər informasiya toplamaq, insanlara düzgün məlumat çatdırmaq üçün yox, qəhrəman olmaq üçün gedirlər. Ola bilsin o, qəhrəman olmaq istəyib. Bizim isə belə fikrimiz olmayıb. Mən öz peşəm gərəyi cəbhə xəttinə getmişəm və işimi görmüşəm. İlqar bəy onu düz deyib ki, nə qulaqlarımızın dibində mina partlayıb, nə də pulemyot bizi palçığa sıxıb. Bunu yaşadığımızı iddia etməmişik. Çünki müharibə yoxdur. Əgər olarsa, biz də o anları yaşayar, o çətinlikləri görərik. Bizim günahımız odur ki, İlqar bəy həmin anları yaşayanda biz uşaq olmuşuq? İndi o qocalıb, növbə bizimdir. Narahat olmasın, əgər müharibə olarsa, ondan öncə cəbhə xəttində biz olacağıq. Əgər İlqar bəy irad tutmaq istəyirsə, birinci öz işlədiyi televiziyadan başlasın. Şəhid verdiyimiz günlərdə konsert verən telekanallara irad tutsun. Onlara söz deyə bilməyən şəxs, cəbhəyə gedib bu xalqa məlumat ötürməyə çalışan jurnalistlərə irad tuta bilməz. Buna haqqı çatmır".

**"Azadlıq" qəzetinin əməkdaşı Sevinc Vaqifqızı isə İlqar Mikayıloğluna cavab verməyə vaxtı olmadığını dedi:** "Mən cəbhə bölgəsində hazırladığım reportajı montaj etməklə məşğulam. İlqar Mikayıloğluna cavab verib zaman itirmək istəmirəm".

Həmçinin cəbhə bölgəsinə yollanmış jurnalist Ramin Deko da İlqar Mikayıloğluna cavab verməyin vaxt itkisi olduğunu və ona heç bir cavab vermək istəmədiyini bildirdi.

**Axar.az xəbər agentliyinin əməkdaşı Tural Qurbanlı İlqar Mikayıloğlunu ciddi adam hesab etmədiyini dedi:** "Ciddi birisi tənqid etsəydi, bəlkə zaman ayırıb cavabını verərdim. Təmas xəttindən çəkdiyim foto və videolar tökülüb qalıb. Mən işimlə məşğulam. Ona cavab verməyə ayıracaq zamanım yoxdur".

**Aktual.az xəbər saytının əməkdaşı İlqar Vəliyev İlqar Mikayıloğlunu iddiasız və tükənmiş jurnalist adlandırdı:** "Onun dedikləri haqda eşitdim. Amma mənasız hesab etdiyim üçün oxumadım. Çünki mənə onun nə dediyi maraqlı deyil. O tükənmiş, iddiasız və qeyri-ciddi biridir. Ona görə də məsələləri çox şişirtmək lazım deyil".

❑ **Günel MANAFLI**

# Deputatlar ön cəbhəyə niyə getmədiklərinin səbəbini açıqladılar



**İqbal Ağazadə:** "Orada müxalifətə birmənalı yanaşılmır"
**Fazil Mustafa:** "Razılıq olmadan hansısa hərbi hissəyə getmək imkanları məhduddur"
**Fəzail Ağamalı:** "Müdafiə Nazirliyinin icazəsi olmadan sərhəd bölgəsinə getmək mümkünsüzdür"

**Son vaxtlar cəbhə bölgəsində baş verənlər dövlətin yüksək rütbəli məmurlarının həmin bölgələrə səfər etməsi və vəziyyətlə tanış olması zərurətini yaradır. Ancaq sərhəd bölgələrindən seçilən deputatların əksəriyyəti nədənsə həmin bölgələrə səfər etmir.**

Yalnız Tovuz rayonunun deputatı Qənirə Paşayevanın ilk gündən sözügedən rayona getməsi, şəhid ailələrinə baş çəkərək onların dərdinə şərik olması, Müdafiə Nazirliyinin Mərkəzi Hospitalında yaralılarla görüşərək onlara dəstək nümayiş etdirməsi cəmiyyətdə bəyənildi və günlərlə sosial şəbəkələrdə müzakirə mövzusuna çevrildi.

Maraqlıdır ki, digər deputatlar sərhəd bölgələrinə niyə getmir?

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə belə bir addımı atmayacağını dedi:** "Mən sərhəd bölgələrinə getməyi düşünmürəm. Çünki orada müxalifətə birmənalı yanaşılmır. Necə bir situasiya ilə qarşılaşacağımı bilmirəm".

**Deputata Fazil Mustafa sərhəd bölgələrinə getməyi Müdafiə Nazirliyinin təşkil etməli olduğunu söylədi:** "Bunu Müdafiə Nazirliyi özü təşkil etməlidir ki, insanlar rahatlıqla hərbi hissələrə gedə bilsinlər. Azərbaycan reallıqlarını bilirsiniz. Getdiyin yerdən mütləq zəng edib yuxarıdan icazə alırlar ki, bu deputatı buraxaq, ya yox. Ora qapalı müəssisələrdir. Millət vəkillərinin döyüş bölgələrində olan əsgərlərlə əlaqə yaratması üçün koordinasiyalı bir iş qurulsa, daha yaxşı olardı. Heç bir razılıq olmadan birbaşa hansısa hərbi hissəyə getmək, əsgərlərlə görüşmək imkanı məhduddur. Bu baxımdan bu məsələdə tam aktivlik göstərmək mümkün olmur. Amma bütün hallarda indiki şərtlərdə döyüş gedir. Burada xüsusi funksional fəaliyyət göstərən insanların olması daha önəmlidir. Dəstək formaları başqa cür də verilə bilər. Şəhid ailələrinə baş çəkməyin də koordinasiyası qurulmalı idi. Məsələn, Türkiyədə şəhid tabutlarını Ankaraya gətirirlər və bütün siyasətçilər, dövlət adamları orada iştirak edir. Daha sonra tabutları məmləkətinə yola salırlar. Ancaq bizdə bu adət yoxdur. Bizdə də bu adətləri doğru tənzimləsələr, hamı iştirak edə bilər. Çünki əgər 10 yerdə şəhid dəfn edilirsə, bizim 10 yerə getməyimiz mümkünsüzdür. Bunu törən olaraq təşkil etsələr, iqtidar da, müxalifət də iştirak edər və ən yaxşı ənənənin əsası qoyula bilər. Hər şey sistemli və doğru şəkildə tərtib edilməlidir ki, həm hərbi hissələrə baş çəkmək mümkün olsun, həm də şəhid ailələrinə. İndiyə kimi biz hərbi hissələrə Müdafiə Nazirliyinin təşəbbüsü ilə baş çəkirdik. Çünki tapşırmayanda hərbi komandir bizi nə qarşılayır, nə də içəri daxil olub vəziyyətlə tanış olmağımıza icazə verir. Bunlar olduqca problemli məsələlərdir. Ola bilər ki, kiminsə ayrıca buraxılışı olsun. Ancaq bizim belə bir imkanımız yoxdur".

Deputata Fəzail Ağamalı da Müdafiə Nazirliyinin icazəsi və göstərişi olmadan sərhəd bölgələrinə getməyin mümkünsüz olduğunu bildirdi.

**Qeyd edək ki, bu yaxınlarda elə qəzetimizə açıqlama verən deputat Bəxtiyar Sadıqov cəbhə bölgələrinə getməyə vaxtı olmadığını bildirmişdi:** "Hərbçilərin öz vəzifəsi var, deputatın öz vəzifəsi. Mənim isə eyni zamanda gündəlik "Azərbaycan" qəzetini buraxmaqla bağlı üzərimə düşən funksiya var. Mən işimi necə planlaşdırıram, nə vaxt haraya gedirəm, harada oluram, bu mənim öz iş qrafikimdir. Başqaları bunu necə qiymətləndirir, hansı qərəzli prizmadan yanaşır, bu da onların problemidir".

Digər deputatların da fikrini almaq istədik. Ancaq onlardan bəzilərinə zəng çatmadı, bəziləri isə telefona cavab vermədi.

❑ **Günel MANAFLI**

# BQXK nümayəndələri Azərbaycanda saxlanılan erməni əsirlərlə görüşüblər




**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin əməkdaşları Azərbaycanda saxlanılan bir erməni əsir və 5 mülki şəxsə baş çəkiblər. Bu barədə APA-ya BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.**

Onun sözlərinə görə, başçəkmə avqustun 6-da həyata keçirilib. Saxlanılan şəxslərə ailə məlumatları ötürülüb və eyni qaydada ailə məlumatları alınıb.

Qeyd edək ki, Azərbaycanda saxlanılan Ermənistan vətəndaşları Yeğişe, Ruzanna, Alfred, Qayane və Petros Gevorkyanlar bir ailənin üzvləridir.

Onlar 2010-cu ilin yanvarında Azərbaycan tərəfə keçiblər. Onlar üçüncü ölkəyə göndərilmək arzularını bildiriblər.

Azərbaycanda saxlanılan digər şəxs isə hərbi əsirdir. Erməni silahlı bölmələrinin hərbçisi Akop İnciqulyan ötən il avqustun 7-dən 8-nə keçən gecə qoşunların təmas xəttinin Ağdam cəbhəsi istiqamətində Azərbaycan ordusunun nəzarəti altında olan hissəsinə keçib.

# YENİ MÜSAVAT

Son səhifə

*N 198 (5907) 8 avqust 2014*


# 36 il sonra nəvəsini tapdı

Argentinanın nənəsi hesab edilən Carlotta adlı qadının nəvəsinin tapılması ölkədə bayram kimi qeyd edilir. 1970-ci illərdə hərbi qruplaşmalar tərəfindən qaçırılan uşağı tapmaq üçün yaşlı qadın əlindən gələni etsə də heç bir nəticə ələ edə bilməmişdi. Bugünlərdə nəvəsini tapan qadın DNT testinin köməyi ilə onun nəvəsi olduğuna hər kəsi inandırıb. Argentinada diktatorluq hökm sürərkən ölkədəki müxalif ailələrin uşaqları qaçırılırdı. Carlottanın nəvəsi də həmin dövrdə öldürülən və qaçırılan 30 min uşaqdan yalnız biri idi. Yaşlı qadın indi nəvəsi ilə görüşmək üçün onun bu görüşə psixoloji cəhətdən hazır olmasını gözləyir. İgnacio Harbon adlı oğlan isə nənəsinin tapılması və onunla görüşəcəyi haqda heç bir açıqlama verməyib.





## Kosmosda uşaq dünyaya gələcək

Məşhur biznesmen Riçard Bransonun qızı kosmosda uşaq dünyaya gətirəcək. Kitab və disk satan mağazalar şəbəkəsi olan R.Branson kosmosa gedib-gəlmək üçün turizm şirkəti açıb. 64 yaşlı biznesmen bugünlərdə qızını kosmosa göndərməyə qərar verib. O, əkiz uşaqlara hamilə olan qızının uşaqlarını kosmosda dünyaya gətirməsini istəyir. Bu ilin sonunda kosmosa uçacaq olan qadının yanında həkimləri də olacaq. 31 yaşlı Holy Branson ərə getdiyi gündən bəri atasının nəvələri olmasını gözlədiyini deyib. Məhz bu səbəbdən də atasının ən böyük arzusunu yerinə yetirərək uşaqlarını kosmosda dünyaya gətirməyə çalışacaq.



## Xərçəngdən qurtulub maniken oldu

İngiltərədə yaşayan Eleşa Turner adlı qadın qeyri-adi əzmi və bacarığı ilə hər kəsi heyrətləndirib. 20 yaşlı qız illər əvvəl xərçəng xəstəliyinə tutulduğunu öyrənib. Sümük xərçəngindən əziyyət çəkən qız ad günündən bir gün əvvəl əməliyyat edilib və xərçəngdən xilas olub. Daha əvvəl sümük xərçəngi haqqında heç nə eşitmədiyini deyən Eleşa müalicə müddətinin olduqca ağrılı və qorxunc olduğunu deyir. O, heç vaxt öləcəyinə inanmır, hər zaman yaşayacağına inanırmış. Məhz bu səbəbdən də heç vaxt müalicədən qaçmayıb. Bir neçə il ərzində xərçəngdən xilas olan qız indi maniken olmağa çalışır. Ayaqlarını itirmək təhlükəsi ilə üzləşən qız maniken olmaq düşüncəsini heç vaxt ağlından çıxarmadığını, bəlkə də bu səbəbdən xəstəliyə qalib gələ bildiyini deyir.

# Qazlı içkilərin zərərləri

Qazlı içkilər hər orqana fərqli şəkildə zərər verir. Bengor Universiteti araşdırmaçıları bu içkilərin asılılıq yaratdığını və yalnız 2 həftə içində bir çox orqanlara ziyan verdiyini açıqlayıb. Qazlı içkilərin orqanlara verdikləri zərərlər belə sıralanır:

**Dəri:** Harvard Universitetinin araşdırmalarına görə, qazlı içkilərin içində olan fosfat erkən yaşlanmağa səbəb olur.

**Sümük:** Amerikadakı Tufts Universitetinin mütəxəssisləri qazlı içkilərin bədəndəki kalsium tarazlığını pozub sümük əriməsinə gətirib çıxardığını söyləyir.

**Dişlər:** İngilis Dental Jurnalının araşdırmalarına görə, qazlı içkilər diş minasına zərər verir, sızlama və çürümələrə gətirib çıxarır.

**Ürək:** Miami Universiteti qazlı içkilərin infarkt riskini artırdığını açıqlayıb.

**Ağciyər:** Adelaide Universitetinin alimləri qazlı içkilərin asmaya səbəb olduğunu və ən azı siqaret qədər zərər verdiyini ortaya çıxarıb.





## Oyun həvəsinə diqqət

Psixoloqlar tərəfindən aparılan araşdırmalar nəticəsində məlum olub ki, hər gün video oyunların qarşısında saatla vaxt keçirən oyun həvəskarları xəyal görməyə başlayırlar. "International Journal of Cyber Behaviour və Psychology and Learning" jurnalında yayımlanan araşdırma nəticələrinə görə, təcrübələr zamanı 1200 oyun həvəskarına suallar verilib. Təcrübədə iştirak edənlərin 12%-i oyun oynadıqdan sonra oyuna aid səslər eşitməyə və oyunların fraqmentlərini görməyə başlayırlar. Oyun həvəskarları daha çox lazer, maşın, güllə, partlayış, qılınc, qışqırıq səsləri eşidirlər. Oyun həvəskarlarından biri bir dəfə qulağına ölüm səslərinin gəldiyini belə deyib. Psixoloqlar qorxulu oyunların uşaqların psixologiyasına daha çox mənfi təsir etdiyini deyirlər. Azyaşlı uşaqlar gündüz oynadıqları oyunları bir çox hallarda gecə yuxularında belə görürlər.






**QOÇ** - Görəcəyiniz işlər barədə hər kəsə məlumat verməyin. Əks təqdirdə, bu amil özünüzə qarşı silaha çevriləcək. Yalnız ədalətli addımlar atın. Təcrübəli insanların məsləhətini eşidin.



**BUĞA** - Yaxşı olar ki, bu təqvimdə hər hansı riskə getməyəsiniz. Onsuz da bunun müsbət nəticəsi olmayacaq. Kənar məsləhətlərə qulaq asın. Vaxtınız olsa, qohumlarınıza baş çəkin.



**ƏKİZLƏR** - Ümumi çalarlarına görə kifayət qədər uğurlu təqvimdir. Bir tərəfdən sevindirici xəbərlər eşitməyiniz, digər tərəfdənsə şəxsi büdcənizdə müəyyən artımlar ovqatınızı xoş edəcək.



**XƏRÇƏNG** - Yaxşı olar ki, tərəddüd etdiyiniz bütün planları təxirə salasınız. Çünki ulduzlar əmin olmadığınız məsələlərə baş vurmağı məsləhət görmür. Əsas vaxtınızı fəaliyyətə yönəldin.



**ŞİR** - Günün birinci yarısı müəyyən qədər gərgin keçə bilər. Sonrakı müddətdə isə qarşınıza qoyduğunuz məsələlərdə bəxtiniz gətirəcək. Qazanmaq və qonaq getmək üçün də münasib vaxtdır.



**QIZ** - Öhdənizə düşən işlərin çoxluğu sizi yora bilər. Bu səbəbdən qarşınızda duran vəzifələri konkretləşdirməlisiniz. Havaların dəyişkənliyi səhhətinizə mənfi təsir göstərməsin deyə, qorunun.



**TƏRƏZİ** - Bəxtinizdə mübahisəli bir gün dursa da, büdcənizi artırmaq üçün gözəl imkanlar qazanacaqsınız. İradənizə zidd addımlar atmayın. Hansısa məqsədinizə tərs olmaqla yetişməyə çalışmayın.



**ƏQRƏB** - Ürəyinizə yaxın olan adamlarla rastlaşacağınıza şübhə etməyin. Eyni zamanda buna özünüz də cəhd edin. Əmin olun ki, bu, rahatlığınızı təmin edəcək. Kasıbçılığı dərd kimi qavramayın.



**OXATAN** - Avqustun ən uğurlu günlərindən birini yaşayacaqsınız. Perspektivli sövdələşmələrdə iştirak etmək üçün olduqca ideal vaxtdır. Axşama yaxın təzə xəbərlər eşitmək ehtimalınız da var.



**OĞLAQ** - Fəaliyyətlə bağlı ciddi problemlərlə rastlaşa bilərsiniz. Bu səbəbdən məsləhət görülməyən adamlarla ciddi müzakirələrə girişməyin. Nəzərə alın ki, səhər saat 09:58-dən sonra Ay bürcünüzə daxil olur.



**SUTÖKƏN** - Ürəyiniz istəməyən adamlarla ünsiyyətdən uzaqlaşın. Əgər müsahibiniz sizi başa düşmürsə, özünüzü yormağa nə lüzum?! Nahardan sonra işgüzar sövdələşmələrdə iştirak edin.



**BALIQLAR** - Yorulmaq bilmədən çalışmalısınız. Çünki indiki dar məqamda hər şey çıxardığınız qərarlardan birbaşa asılı olacaq. Ulduzlar şəxsi həyatınızda böyük dönüşün yaxınlaşdığını göstərir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yüksək təzyiq yaddaşsızlıq yaradır



Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, 40 yaşına çatmış yüksək qan təzyiqindən əziyyət çəkən insanlar müalicə edilmədikləri halda 20 il sonra yaddaşlarını itirməyə başlayırlar. Mütəxəssislər 20 il ərzində 48-67 yaşlı 14 min adam üzərində araşdırma aparıblar. 40 yaşlarında yüksək təzyiqdən əziyyət çəkən insanlar 60 yaşlarından sonra yaddaşlarını itirməyə başlayırlar. Lakin qan təzyiqi zamanında müalicə edildiyi zaman insan orqanizmi üçün heç bir problem yaratmır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565